www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 dekabr 2018-ci il Cümə № 280 (7169) Qiyməti 60 qəpik

Xəbər

## "Donuz qripi" xəstəliyi: fırıldaq, yoxsa həqiqi təhlükə?

yazısı səh.10-da

Gündəm

### DTX-nin həbs etdiyi vətən xainləri "Mahmudovçu komanda"nın üzvləridir



Sabiq MTN polkovniki İlham İsmayıl uğurlu əməliyyatın pərdəarxası məqamlarından danışdı

yazısı səh.3-də

### Azərbaycanı avantüraya çəkmək istəyən hansı qüvvələrdir - prezidentin xəbərdarlığı

yazısı səh.9-da

*Eldar Namazov:*

### "Azərbaycan ordusunun ikinci əməliyyatı lazım olacaq"

yazısı səh.5-də

### 2018-ci ilin hadisələri: Qaşıqçının qətli, Sərkisyanın istefası , Ərdoğanın...

yazısı səh.11-də

### Avropa İttifaqı ilə sazişə Avropa Parlamentinin şərtləri mane olur?

yazısı səh.9-da

### Gədəbəydə idman müəllimi özünü qumbara ilə partlatdı

yazısı səh.10-da

### Avropa Birliyi və Rusiya "odda yanmaz, suda batmaz" dollara qarşı

yazısı səh.12-də

### İri sahibkarın nəyi olmalıdır - 30 milyon manatı, 200-dən çox işçisi və...

yazısı səh.13-də

### Sənaye müəssisələri Bakıdan kənara köçürüləcək

yazısı səh.4-də

### İnternetdə narkotik satan dəstə məhkəmə qarşısında

yazısı səh.14-də

### Xəzərin dibi ilə bağlı problemlər 2019-a qaldı

yazısı səh.12-də

# BAKININ İLSONU ŞİFRƏLİ MESAJLARI - OQTAY ƏSƏDOV TEHRANA NİYƏ GETMİŞDİ...

Azərbaycanı "çəkic və zindan" arasına salmaq istəyirlər; təzə ildə güc mərkəzlərinin ölkəmiz uğrunda rəqabəti daha da sərtləşəcək; **rusiyalı politoloq:** "Bakı İrana qarşı ABŞ-la sıx əməkdaşlığa getməyəcək..."



yazısı səh.8-də

# Abutalıbovun kadrları işdən çıxarılır, həbslər də ola bilər

Hesablama Palatası BŞİH-in yalnız bir qurumunun auditi nəticəsində külli miqdarda mənimsəmə faktı ortaya çıxarıb

yazısı səh.7-də




### Sabiq nazir oğlunun xaricdəki biznesi ilə bağlı danışdı

yazısı səh.7-də



### Baldızı oğlunu həbsə göndərən Arif Əsgərov oğluna dəbdəbəli toy etdi

yazısı səh.6-da




### Həbsdəki bloggerə yeni cinayət işi-hüquq müdafiəçiləri həbsxanaya gedəcək

yazısı səh.6-da

YENİ MÜSAVAT
N 280 (7169) 28 dekabr 2018



## Prezident FHN-in İdman-Sağlamlıq Mərkəzinin açılışında iştirak edib

**Dekabrın 27-də Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzinin açılışı olub.**

“Report” xəbər verir ki, prezident İlham Əliyev açılışda iştirak edib.

Fövqəladə hallar naziri, general-polkovnik Kəmaləddin Heydərov dövlət başçısına raport verib.

Prezident İlham Əliyev İdman-Sağlamlıq Mərkəzinin rəmzi açılışını bildirən lenti kəsib, burada yaradılan şəraitlə tanış olub.

Fövqəladə hallar naziri Kəmaləddin Heydərov görülən işlər və burada yaradılan şəraitlə bağlı dövlət başçısına ətraflı məlumat verib.

Qeyd edək ki, müasirliyi ilə diqqəti cəlb edən mərkəzdə tikinti işləri yüksək keyfiyyətlə aparılıb. Ümumi ərazisi 14 min kvadratmetr olan idman qurğusunda bütün zəruri infrastruktur yaradılıb.

Prezident İlham Əliyev İdman-Sağlamlıq Mərkəzinin universal zalında yaradılan şəraitlə tanış olub.

## Prezident və xanımı Sumqayıtda açılışda

**Sumqayıt şəhərində qaçqın və məcburi köçkün ailələri üçün inşa edilən yaşayış binaları kompleksinin açılışı olub. Açılışda prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər.**

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri Rövşən Rzayev görülən işlərlə bağlı dövlətimizin başçısına və birinci xanıma məlumat verib.

Şəhərin mərkəzində, Koroğlu prospektində yerləşən kompleksin inşasına 2017-ci ilin martında başlanılıb. Xüsusi memarlıq üslubunda və müasir səviyyədə inşa olunan bu kompleks 1005 qaçqın və məcburi köçkün ailəsi üçün nəzərdə tutulub. Ərazisi 4 hektar olan kompleksdə ümumilikdə 12 bina var. Kompleksdə məktəb, uşaq bağçası, mərasim evi, polis məntəqəsi və digər zəruri infrastruktur obyektləri inşa olunub. Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mənzillərdə və məktəbdə yaradılan şəraitlə tanış olublar.

## “Prezident İlham Əliyev müdrik və istedadlı rəhbərdir”-Rusiyanın patriarxı

**Moskvanın və bütün Rusiyanın patriarxı Kirill Azərbaycan prezidenti İlham Əliyevə təbrik məktubu göndərib.**

“Report” xəbər verir ki, məktubda deyilir:

“Zati-aliləri, möhtərəm Prezident.

Doğum gününüz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Siz uzun illərdir ki, rəhbərlik etdiyiniz ölkənin firavanlığının və dinamik inkişafının qayğısına qalan müdrik və istedadlı rəhbər kimi Azərbaycan sakinlərinin rifahı naminə çalışırsınız.

Bakı Pravoslav Kilsəsinin və Bakı-Azərbaycan Yeparxiyasının fəaliyyətini dəstəklədiyinizə və onlara göstərdiyiniz diqqətə görə Sizə minnətdarlığımı bildirmək istərdim. Ümidvaram ki, bizim əməkdaşlığımız bundan sonra da öz bəhrələrini verəcək, cəmiyyətdə ənənəvi mənəvi-əxlaqi dəyərlərin bərqərar olmasına, Cənubi Qafqaz regionunda, dinlərarası və millətlərarası sülhün möhkəmlənməsinə şərait yaradacaq.

Sizə möhkəm cansağlığı, Tanrıdan kömək və Azərbaycan xalqına xidmət kimi məsul fəaliyyətinizdə uğurlar diləyirəm".

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz kifayətdir.
Telefon: (012) 434 93 01

# Yanvarda pensiyalar bu cür hesablanacaq

**2019-cu ilin əvvəlindən pensiya hüququ yaranmış şəxslərin 70 faizinin pensiya təyinatı avtomatlaşdırılmış qaydada aparılacaq. Belə ki, pensiya, şəxsə onun pensiya hüququnun yarandığı gün təyin ediləcək və onun sistemdə mövcud olan əlaqə vasitələrinin birinə pensiyanın təyin olunması, təyin edilmiş pensiyanın məbləği, pensiyanı almaqdan ötrü ödəniş kartını əldə etmək üçün nə zaman və hansı banka müraciət etmələri barədə sms vasitəsilə məlumat veriləcək. Bu barədə virtualaz.org-a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat veriblər.**



Bildirilib ki, “Əmək pensiyaları haqqında” Qanunda dəyişiklik edilməsindən sonra pensiya təyin olunması üçün vətəndaşın müraciətinə, onun fiziki iştirakına ehtiyac olmayacaq, ondan heç bir sənəd tələb edilməyəcək. Eyni zamanda 2019-2020-ci illərdə yaşa görə əmək pensiyası yaşına çatmış şəxslərin fərdi hesabında 2018-ci ilin 1 iyul tarixinədək pensiya kapitalı qeydə alınıbsa (məbləğdən asılı olmayaraq), onlara əmək pensiyası təyin edilərkən 2006-cı ilin yanvarın 1-dək 25 il sosial sığorta stajı hesablanacaq. Həmin 25 illik stajın və eləcə də 2018-ci ilin 1 iyul tarixinədək qeydə alınan pensiya kapitalının qanunvericiliyin tələbləri əsasında indeksləşdirilməsi aparıldıqdan sonra formalaşan ümumi pensiya kapitalı əsasında pensiya təyin olunacaq (əgər vətəndaşın 2006-cı ilədək faktiki sosial sığorta stajı 25 ildən çox olarsa, onların faktiki sosial sığorta stajı nəzərə alınacaq).

2021-ci ildən isə qanunla müəyyən edilmiş yaş həddinə çatan şəxslərə yaşa görə əmək pensiyası təyin edilərkən 2006-cı ilin yanvarın 1-dək olan sığorta stajı hər təqvim ili üçün bir il azaldılmaqla hesablanacaq. Məsələn, 2021-ci ildə həmin sığorta stajı artıq 25 il deyil, 24 il, 2022-ci ildə 23 il, 2023-cü ildə 22 il və s. hesablanacaq.

Əlillik qrupu müəyyən edilmiş şəxslərə isə əlilliyə görə əmək pensiyası təyin edilərkən onların 2006-cı ilədək olan sığorta stajı həmin dövrə aid əmək qabiliyyətli yaş dövrünün (15 yaşdan sonra) hər ili üçün 4 ay götürülməklə nəzərə alınacaq. Ailə başçısını itirməyə görə əmək pensiyası təyin edilərkən isə pensiyaçı olmayan vəfat etmiş şəxsin 2006-cı il yanvarın 1-dək olan sığorta stajı da həmin dövrə aid əmək qabiliyyətli yaş dövrünün hər ili üçün 4 ay götürülməklə hesablanacaq.

2019-cu ildə 19,5 min nəfərədək vətəndaşın yeni dəyişikliklərlə bağlı əmək pensiyası hüququ əldə edəcəyi və onların gəlirlərinin 48 faiz artacağı gözlənilir. Ümumilikdə, bu islahatla bağlı gələn il təxminən 36 min nəfərin aylıq pensiyasında artım olacağı gözlənilir.

Növbəti ildə əmək pensiyası hüququ yaranacaq şəxslərdən 30 faizinə isə pensiya təyinatının avtomatlaşdırılmış qaydada aparılması şamil olunmayacaq. Həmin şəxslərin sırasına 2006-cı ildən 2018-ci ilin 1 iyul tarixinədək fərdi hesabında heç bir pensiya kapitalı qeydə alınmayanlar, dövlət qulluqçuları, hərbi qulluqçular, xüsusi rütbəli şəxslər və s. kateqoriyadan olanlar daxildir. Lakin gələn il ərzində həmin kateqoriyadan olan vətəndaşların pensiya təyinatının avtomatlaşdırılması üçün həm qanunvericilikdə, həm də aidiyyəti qurumlarla birgə elektron proqram təminatının qurulması istiqamətində işlər aparılacaq.

## Bayramda hava necə olacaq?

**Bayram günlərinə olan ilkin hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən “Report”a verilən məlumata görə, dekabrın 31-də Bakıda hava şəraiti dəyişkən buludlu olacaq, əsasən yağmursuz keçəcək, mülayim şimal küləyi əsəcək.**

Havanın temperaturu gündüz 6-8, dekabrın 31-dən yanvarın 1-nə keçən gecə 3 dərəcəyə yaxın olacaq.

Yanvarın 1-də gün ərzində mülayim, əsasən yağmursuz hava şəraitinin davam edəcəyi gözlənilir.

## Naxçıvanda ər arvadını qətlə yetirib

**Naxçıvan şəhərində qətl hadisəsi baş verib. “Report” xəbər verir ki, bu barədə Daxili İşlər Nazirliyi məlumat yayıb.**

Belə ki, dekabrın 26-da Naxçıvan şəhərində şəhər sakini Ülvi Bayramov münaqişə zəminində arvadı Anarəni bıçaqla qətlə yetirib. O, könüllü polisə gələrək istintaqa təslim olub.

Faktla əlaqədar cinayət işi başlanıb.



## Tramp: “İsrailə milyardlarla dollar göndəririk”

**ABŞ prezidenti Donald Tramp İraq səfəri zamanı Suriya ilə bağlı verdiyi bəyanatda İsrail-ABŞ münasibətlərinə toxunub. “News.co.il” xəbər verir ki, jurnalistlərdən biri ABŞ hərbi kontingentinin Suriyadan çıxarılacağı təqdirdə, ABŞ-ın ən yaxın müttəfiqi olan İsrailin təhdid altında qala biləcəyi ilə bağlı bəyanatını şərh etməsini xahiş edib.**

“Mən bunu fərqli görürəm. Bibi (Binyamin Netanyahu) ilə söhbət etmişəm. Ona bu haqda danışmışam. Bilirsiniz, biz İsrailə ildə 4,5 milyard dollar yardım göndəririk. Onlar özlərini qorumağı yaxşı bacarır, buna əmin ola bilərsiniz”,- deyə Tramp bildirib.

Tramp ABŞ-ın bundan sonra da İsrailə dəstəyi davam etdirəcəyinə əmin edərək, əslində ABŞ-ın İsrailə yardımının açıqlanan məbləğdən çox olduğuna eyham vurub.

Bu arada, İsrail mediası Trampın bu bəyanatında səhv tutub. Məlumata əsasən, hazırda Vaşinqtonun İsrailə illik hərbi yardım paketi 3,8 milyard dollar təşkil edir.

## Belarus Azərbaycanda iri dərman zavodu tikəcək

**Azərbaycanda Belarus investisiyaları ilə iri əczaçılıq müəssisəsi tikiləcək. Bunu Belarusun Azərbaycandakı səfiri Gennadi Axramoviç mətbuat konfransında deyib. Səfirin sözlərinə görə, bu müəssisə Azərbaycan bazarını ən müasir, yüksək texnologiyalı tibbi preparatlarla təmin edəcək. O əlavə edib ki, söhbət ilk növbədə onkoloji preparatların istehsalından gedir.**

G.Axramoviç bildirib ki, müəssisədə istehsal olunacaq məhsulların üçüncü ölkələrə ixracı da təşkil oluna bilər.

## Müdafiə Nazirliyi erməni dezinformasiyasına münasibət bildirdi

**Azərbaycan Müdafiə Nazirliyi Ermənistan Müdafiə Nazirliyinin mətbuat xidmətinin rəhbəri Artsurun Ovanisyanın ötən gün yaydığı dezinformasiya xarakterli açıqlamaya münasibət bildirib. Ovanisyan iddia edirdi ki, təmas xəttinin Ağdam istiqamətində, Baş Qarvənd kəndi yaxınlığında guya Azərbaycan ordusunun ön xətt mövqelərində atışma baş verib, yaralı, yaxud ölən var.**

Azərbaycan MN-in mətbuat xidmətindən bildirilib ki, bu, Ermənistan tərəfinin öz ordusundakı baş verən xaos, intizamsızlıq və özbaşınalıq hallarını gizlətmək, o cümlədən dekabrın 26-da cəbhənin Ağdam rayonu istiqamətində mülki vətəndaşlarımızı atəşə tutmasından beynəlxalq ictimaiyyətin diqqətini yayındırmağa hesablanmış ucuz təbliğatdır: “Bildiririk ki, Azərbaycan ordusunun mövqelərində heç bir hadisə baş verməyib və bölmələrimiz əməliyyat şəraitinə nəzarət edir”.

## Türkiyə XİN: “ABŞ ”S-400" sistemlərini araşdıra bilməyəcək"

**Türkiyə Rusiyadan aldığı “S-400" hava hücumundan müdafiə sisteminin sirlərini ABŞ-ın araşdırmasına icazə verməyəcək.**

“Yeniakit” nəşri yazır ki, bunu Türkiyənin Xarici İşlər Nazirliyi “S-400" sistemini ABŞ-ın araşdırmasına təqdim edəcək” iddiasına cavab olaraq bildirib.

Bildirilib ki, Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu Türkiyənin ABŞ-a “S-400" sistemlərini araşdırmaq üçün şərait yaratmayacağı ilə bağlı Rusiya diplomatını əmin edib.

Qeyd edək ki, “S-400" zenit-raket müdafiə sisteminin Türkiyədə quraşdırılmasına 2019-cu ilin oktyabrında başlanılacaq.

## Xaricə qaçan məmur 3 milyon avro pulu evdə unutdu

**Rusiyanın “Qazprom Promqaz” şirkətinin keçmiş rəhbəri Aleksandr Karaseviç beynəlxalq axtarışa verilib. Bu barədə qərarı Rusiya İstintaq Komitəsi çıxarıb.**

Virtualaz.org “Mash” teleqram-kanalına istinadən xəbər verir ki, istintaqın gəldiyi qənaətə görə, Karaseviç regionların qazlaşdırılması layihəsini həyata keçirən zaman 2 milyard rubl (təxminən 30 milyon dollar) vəsaiti mənimsəyib.

Nəticədə, nə regionlarda qaz, nə də ölkədə Aleksandr Karaseviç var.

Maraqlıdır ki, xaricə qaçmış keçmiş məmurun evində kisələrə doldurulmuş 3 milyon avro tapılıb. Karaseviçin Rusiyadan qaçarkən bu pulları unutduğu güman edilir.

YENİ MÜSAVAT
N 280 (7169) 28 dekabr 2018



# DTX-nin həbs etdiyi vətən xainləri "Mahmudovçu komanda"nın üzvləridir

## Sabiq MTN polkovniki İlham İsmayıl uğurlu əməliyyatın pərdəarxası məqamlarından danışdı

**Dövlət Təhlükəsizliyi Xidməti (DTX) xarici xüsusi xidmət orqanlarına çalışan vətən xainlərinin ifşasını davam etdirir. Son olaraq, həyata keçirilən əməliyyatda iki casus ifşa olunub.**

DTX-nin bu barədə yaydığı məlumatda bildirilir ki, xarici xüsusi xidmət orqanları tərəfindən maddi maraq müqabilində xüsusi təxəllüs verilməklə məxfi əməkdaşlığa cəlb edilmiş Azərbaycan vətəndaşı, 1959-cu il təvəllüdlü İsmayılov Zakir Əlibala oğlu keçmiş Milli Təhlükəsizlik Nazirliyində şöbə rəisi və digər məsul vəzifələrdə işlədiyi dövrdə Azərbaycanın dövlət təhlükəsizliyi və milli maraqları zərərinə fəaliyyət göstərərək tutduğu vəzifələrə görə ona məlum olan, habelə əldə edə bildiyi əks-kəşfiyyat fəaliyyəti üzrə sənədlər, şəxsi heyət barədə və digər məxfi məlumatları, eləcə də 2015-ci ildən etibarən təqaüddə olduğu dövrdə keçmiş əlaqə və imkanlarından istifadə edərək təhlükəsizlik orqanlarında baş verən dəyişikliklər barədə məlumatları, Azərbaycan xüsusi xidmət orqanlarına qarşı kəşfiyyat işlərinin mümkün üsulları barədə təhlilləri müntəzəm olaraq xarici xüsusi xidmət orqanına təqdim etməklə dövlətə xəyanət edib.

İstintaq zamanı Z.İsmayılovun xarici xüsusi xidmət orqanları ilə gizli və şifrəli yazışmaları, xarici xüsusi xidmət orqanlarına göndərilmiş sənədlər, gizli toplanılmış məlumatların olduğu elektron daşıyıcılar, səsyazmalar və iş üzrə əhəmiyyət kəsb edən digər çoxsaylı materiallar aşkar edilib. Z.İsmayılov Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə məsuliyyətə cəlb edilərək həbs edilib.

DTX-nin məlumatında o da qeyd olunur ki, 1977-ci il təvəllüdlü Yusifzadə Bəhruz Yaşar oğlu təhlükəsizlik orqanlarında xidmətdən ehtiyata buraxıldıqdan sonra xarici ölkələrə səfərlərində əvvəllər məxfi əməkdaşlığa cəlb etdiyi xarici ölkə vətəndaşının vasitəsilə onunla əlaqə quran xarici xüsusi xidmət orqanları əməkdaşları ilə görüşlər təşkil edib. Onlar tərəfindən maddi maraq müqabilində əməkdaşlığa cəlb edilib, yenidən Azərbaycan xüsusi xidmət orqanlarından hər hansı birinə işə düzəlməyə cəhd etmək barədə tapşırıq alıb. B.Yusifzadə göstərilən istiqamətdə fəaliyyət göstərərkən ifşa olunub.

B.Yusifzadənin casusluq fəaliyyətinə, xarici xüsusi xidmət orqanlarından maddi vəsait qəbul etməsinə dair çoxsaylı video və sair materiallar əldə edilib. B.Yusifzadə Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə məsuliyyətə cəlb edilərək həbs edilib.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat tədbirləri davam edir.

Həbs edilən agentlərin hansı ölkəyə casusluq etdiklərinə dair müxtəlif fikirlər səslənir. Rəsmi açıqlamada bu haqda məlumat verilməsə də, bəzi ekspert rəylərində İranın adı çəkilir.



**Sabiq MTN polkovniki İlham İsmayıl DTX-nin uğurlu əməliyyatı haqda "Yeni Müsavat"a açıqlamasında ciddi məqamlara toxundu:** "Çox əməliyyat keçirilir. Amma bütün dünyada belədir ki, ən uğurlu əməliyyat casusların ifşasıdır, yəni vətənə xəyanət edənlərin. Bu çox uzun çəkən bir prosesdir. Birdən-birə olmur. Bunun detallarını öyrənmək, ona çıxmaq illər çəkir. Xüsusi xidmət orqanının işində ən ciddi uğur xarici ölkənin kəşfiyyatının buradakı casuslarının ifşasıdır. DTX-nin işini xüsusi dəyərləndirmək lazımdır. Burada kimin zəhməti keçibsə, həmin əməliyyat işçilərinin hər birinə təşəkkür edirik. Belə şəxslərin necə ələ alınması müxtəlif yollarla həyata keçirilir. İfşa edilən bu şəxslər faktiki olaraq Eldar Mahmudov nazir postundan azad ediləndən 10 gün sonra işdən çıxarılıb. Bunlar köhnə, yəni Eldar Mahmudov komandasının üzvləridir. Bir məqamı deyim. Bir strukturda görəndə ki, filankəs rüşvət alır, çalışırlar ki, məsələləri elə rüşvətlə də həll etsinlər, qanunları pozsunlar. Yəni görəndə ki, ləğv edilmiş MTN-ə rəhbərlik etmiş Eldar Mahmudovun bütün fəaliyyəti pul istiqamətində qurulub, daha çox pula meyillidirlər, pulla hər şeyi həll edirlər, bütün məqsədləri casusların ifşasına deyil, kimlərdənsə pul qoparmağa yönəlib, o zaman işçilər arasından belələri ortaya çıxır. Məlumat ötürməklə pullar əldə edirlər. Sizləri əmin edirəm ki, onlardan ən məxfi məlumatları pulla ələ keçirmək olardı. Ona görə xarici kəşfiyyat orqanları uyğun zaman seçir, görüş təşkil edirlər. Adətən belə görüşlər xarici ölkələrdə təşkil olunur. Həmin görüşlərdə belə şəxslərə deyirlər ki, sən milyonun sahibi olacaqsan. Elə-belə pul təklif olunmur. Xaricdə hesabının açılacağı və pulların ora köçürüləcəyi vədləri verilir. Bütün bunların müqabilində yüngül bir informasiya istədiklərini bildirirlər. Burada ciddi bir şeyin olmadığını söyləyirlər. Əvvəl kiçik informasiya ilə başlayırlar, ardınca bu fəaliyyət şişən istiqamətdə davam edir. Sonunda bu fəaliyyət vətənin mənafelərinin əldən getməsinə səbəb olur, xəyanətə çevrilir. Dövlətin sirlərini satmaq heç kəsə adi gələ bilməz. İndi iddialar var ki, bu agentlər daha çox İranla bağlıdırlar. Bunlar daha çox bağlı olduqları ölkələrin burada hansı maraqlarına toxunduqlarına diqqət yetirirlər. Sözsüz ki, bu xəyanəti pul müqabilində edirlər. İdarəetmənin yaratdığı situasiyadan belələri maksimum yararlanıb. Bu, ilk belə hal deyil. Dünya tarixində çox belə hallar olub ki, ən ciddi, informasiyalı şəxsləri əldə etməyə çalışıblar. Fikir verirsinizsə, burada nə kontrol material var, nə də ifşaedici məlumat. Pul verməklə ən ciddi informasiyanı əldə etməyə çalışırlar. Bunlar Mahmudovun vaxtında nazirlikdəki idarəetmədən doğan hərəkətlər olub".

**İ.İsmayıl hansı ölkənin bu şəxsləri ələ aldığı yöndə qənaətlərini də bölüşdü:** "Azərbaycanda ən çox fəaliyyət göstərən qonşu ölkələrimiz olan Rusiya və İrandır. Başqa ölkələrin də maraqları olmamış deyil. Burada informasiya mənbələri olan ölkələr var. Amma Rusiya və İranla digər ölkələrin mənbələri müqayisəolunmayacaq dərəcədə azdır. İran və Rusiya üzərində şübhələrin yaranması əsassız deyil. Ola bilər ki, İranla bağlı hər hansı bir informasiya sızsın. Biləsiniz ki, İranın çox professional olan xüsusi xidmət orqanı var. Azərbaycan müstəqillik əldə edəndən bəri İran ölkəmizdə mənbələr əldə etmək üçün ciddi fəaliyyət göstərir. Bu, təkcə din xadimləri, dindarlarla bağlı deyil. Hamı elə bilir ki, İran gəncləri dini yola çəkməklə bu cür fəaliyyət aparır. Amma bu belə deyil. Bu, sadəcə, bir xətdir. Digər xətlər də var ki, onlardan biri də vəzifədə olanların, ciddi informasiya daşıyıcılarının ələ alınmasıdır. Bunu da həyata keçiriblər. İran və Rusiyanın casus şəbəkələri ifşa olunanda onların adları çəkilmir. Bu da istər-istəməz şübhələr yaradır. Münasibətləri korlamamaq üçün daha çox bu iki dövlətin adı çəkilmir. Elə bir dövlətlərarası əlaqələr var ki, ad çəkilərsə, bunun münasibətlərə ciddi zərbə vuracağı düşünülür. Şübhəsiz ki, Dövlət Təhlükəsizlik Xidmətinə hansı ölkənin olması bəllidir. Azərbaycanın apardığı xarici siyasətin nəticəsində o ad açıqlanmır. İran və ya Rusiya deyil, o ölkə Amerika olsaydı, ad açıqlanardı. ABŞ-ın da təbii ki, burada casusları var. Özü də kifayət qədərdir. Burada, sadəcə, İranın məsələsi daha qabarıqdır. Sızan informasiyalar onu deyir ki, bu şəxslər İrana işləyiblər. Fərqi yoxdur ki, bu şəxslər Rusiya, İran və ya hansısa bir ölkəyə işləyiblər. Əsas məsələ odur ki, bu adamlar dövlətə xəyanət ediblər. Bir şeyi də deyim ki, ola bilər, İranın birbaşa bu məsələdə əli olmasın. Çünki İran xüsusi xidmət orqanında belə bir qayda var: başqa ölkə üzərindən İran bunları edə bilər. Məsələn, bunu özü etmir, Gürcüstan xətti ilə edir. İstənilən ölkənin xətti ilə edə bilər. Özgə bayrağı altında "verbovka" edirlər. Sənə lazım olan informasiyadır ki, onu da əldə edirsən. Belə hal olur ki, rəsmi şəkildə bir ölkənin adı olur, amma əslində işin arxasında başqa bir dövlət dayanır. Mənə elə gəlir ki, belə işlərdə bizə daim yardım edən İsrail xüsusi xidmət orqanının bu dəfə də bizə köməyi dəyib. Həbs edilən şəxsləri tanımıram. Mən xüsusi xidmət orqanlarında işlədiyim dövrdə bu adamlar üzdə olmayıblar. Görünür, o dövrdə gənc olublar, yaxud da onlarla işləməmişəm. DTX-nin məlumatında həmin şəxslərin nə zamandan casusluqla məşğul olduqları dolayısı ilə var. Hətta onlardan biri təşəbbüslə çıxış edib ki, fəaliyyətimi davam etdirə bilərəm, oradan çıxmağıma baxmayaraq. Bir də biləsiniz ki, agentura o demək deyil ki, bir şəxs işdən çıxdı, yaxud təqaüdə göndərildi, fəaliyyəti dayandı. Agent yerində qalır. Onu başqa istiqamətə yönəldirlər. O zaman agent fəaliyyəti dayanır ki, ya ölür, ya şikəst olur, ya da heç bir informasiya təqdim etmir".

**Sabiq MTN polkovniki bu şəxslərin Azərbaycan üçün təhlükəli ola biləcək informasiyaları bağlı olduqları yerə ötürə biləcəklərini istisna etmir:** "Əlbəttə, təhlükəli məlumatları ötürə bilərlər. İnformasiya elədir ki, həmin ölkə onu bilə bilər. Amma bu şəxsi cəlb edir, ondan informasiyanı alır və onu özündən asılı vəziyyətə salır. Bir misal çəkim, agent keçmiş iş yoldaşı ilə görüşür və söhbət zamanı deyir ki, yenə o xətlə İrana və ya Rusiyaya yola salırsınızmı? Yaxud onlarla o xətlə yenə işləyirsiniz? Bank əməliyyatlarını necə keçirirsiniz? Sərhəd əməliyyatlarını necə keçirirsiniz? Həmin yollamı əməliyyatlar aparılır? Bircə dəfə əks tərəf qarşıdakına inanıb həmin xətlə işlərin davam etdiyini, yaxud başqa bir xətlə getdiyini desə, bu, artıq informasiyadır. Buna uyğun olaraq agent fəaliyyətini həyata keçirir. Agent bəzən on dəfə cəhd edib bir informasiyanı alır. Keçmiş iş yoldaşı ilə bir dəfə çay içir, ikinci dəfə yemək yeyir, üçüncü dəfə araq içir və bu zaman özünə aid olan informasiyaları haradasa əldə edə bilir. Bu cür əməliyyatların davamlı olacağını düşünürəm. Belə şeylər hələ çox çıxacaq. Çünki Eldar Mahmudovun 11 il üç aylıq fəaliyyətinə dözməklə böyük bir zərbə almışıq. Bunlar hələ böyüklərdir, xırdaları da çıxacaq. Qarşı tərəf dayanmayacaq, fəaliyyətini davam etdirəcək. Əminəm ki, hazırda çalışan şəxslərdən belələri çıxmayacaq, yenə də Eldar Mahmudovun komandasından çıxacaqlar. Agentin hansı vəzifəni tutması önəmli deyil. O adam ölkənin ən məxfi idarəsində oturub, ən məxfi informasiyalara sahib olan adamdır. Konkret olaraq həmin şəxsdən informasiya istəyiblər. İnformasiyaya sahib olan adamları "verbovka" etmirlər. Bu, birbaşa dövlət cinayətidir. Onların törətdikləri əməllərin Azərbaycan dövlətinə nə dərəcədə zərər vurduğu hesablanacaq. Buna uyğun da cəzalar veriləcək. Hər halda, yüksək cəzalar alacaqlar".

**Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 280 (7169) 28 dekabr 2018



# Kompüterlə "yar" seçmək... - proqnoz

Samir SARI

**Sizi bilmirəm, mən elmi proqnozlara çox inanıram.**

Nostradamusun 4-5 əsr əvvəl yazdıqları, Vanqa nənənin 50 il əvvəl dedikləri ağlıma batmır, amma hansısa məşhur universitetin adlı-sanlı aliminin gələcəyə dair verdiyi proqnoz mənə çox ağlabatan görünür.

Biz bir çox elmi proqnozların doğrulduğunu görə-görə böyüyüb yaşlanmış adamlarıq. Özü də bunlar elə proqnozlar idi ki, qətiyyən ağlabatan deyildi, hətta çox fantastik proqnozlar idi. Amma hamısı gerçəkləşdi.

Yazıçı Aleksey Tolstoy hələ ötən əsrin otuzuncu illərində "Mühəndis Qarinin hiperboloidi" əsərində lazer şüasından bəhs etmişdi, 30 il sonra o şüa kəşf olundu. Yazıçı insanın Aya uçacağını proqnozlaşdırmışdı, 40 il sonra bu iş baş verdi.

Yaxud 1980-ci ildə bir dəfə qonşu uşaqlarla oturub ordan-burdan söhbət edəndə biri "Elm və həyat" jurnalından oxuduğu elmi proqnoz barədə danışdı, dedi ki, vaxt gələcək, məsələn, 20-30 ildən sonra adamlar bir-birilə telefonda danışarkən, biri Amerikada, o biri Bakıda olsa da, bir-birini görəcəklər.

Bu çox ağlasığmaz elmi proqnoz idi, adam təsəvvür edə bilmirdi. Amma bunu deyən şəxs əmin idi ki, o deyilənlər doğrulacaq. (Həmin qonşum indi BDU-nun professorudur).

Budur, o 1980, bu 2018, amma insanların görüntülü danışmalarına artıq heç kim təəccüblənmir və hamı da min ilin kəşfiymiş kimi bundan yararlanır. Bir adam da bilmir ki, alimlər bu ixtiranı etmək üçün neçə onilliklər boyu yerə zeh qoydular, nə qədər böyük alimin o günü görməyə ömrü yetmədi.

Axtarsan, yüzlərlə belə ağlasığmaz kəşfin müasir insanın həyatına səssis-səmirsiz girməsini müşahidə edərsən.

Hazırda yeni-yeni elmi proqnozlar verirlər. Məsələn, dünən-srağagün mediada xəbər gedib ki, israilli professor, tarixçi alim Yuval Noy Harari yaxın gələcəkdə süni intellektin və robotların iş bazarında insanları sıxışdıracağını söyləyib.

Alim deyib ki, bəzi peşələr yox olacaq və insanlar üçün yeni iş yerləri yaranacaq. Bu isə xüsusi bacarıq və davamlı təhsil tələb edəcək. Nəticədə insanlar üç, dörd, hətta beş universitet oxumağa məcbur olacaqlar.

Heç demə, insanların 20 il sonra universitetdə hansı sahə üzrə təhsil alacaqları, harada işləyəcəkləri, kiminlə evlənəcəkləri və s. məsələlər kompüter vasitəsilə təyin ediləcək. O, artıq bu üsuldan banklarda kredit verilməsi zamanı istifadə olunduğunu bildirib.

İnanıram ki, elə də olacaq. Düzdür, həmişə olduğu kimi, bəzi adamlar yenə də elmi-texniki tərəqqinin əleyhinə gedəcək, kompüterin seçdiyi xanımla (və ya bəylə) yox, gedib xalaqızıyla (xaloğluyla) ailə quracaqlar, amma bu, onları məsud etməyəcək. Çünki heç biri mühəndisdən çox bilmir. Kompüter göstərirsə ki, məsələn, sən gedib Reykyavikin Sudurhlidar massivindəki sarışın Linda ilə evlənməlisən, deməli, direşməli deyilsən, birbaşa İslandiyaya getməlisən, əks təqdirdə günün qara olacaq. İntəhası, bu işin də minusu odur ki, birinin bəxtinə kaliforniyalı ermənin oğlu çıxacaq, gədə də durub öz "yar"ının dalınca gəlmək istəyəcək, amma atası qızı verməyəcək ki, biz sümüyümüzü it sümüyünə calaya bilmərik.

Bişəkk, bizim ölkədə bu ixtiranın başqa minusları da olacaq. Məsələn, kompüter göstərəcək ki, Azərbaycan Respublikasının ali təhsilli vətəndaşı A. sosial təminat sektorunda, B. başqa dövlət qulluğundan işləsə xalqa, dövlətə faydalı olar. Amma onları oralara götürən kimdir? Adamlar gedib müraciət edəcəklər, deyəcəklər, baxın, bunu kompüter göstərib, bütün göstəricilərimiz düz gəlir. Amma orada onlara deyəcəklər ki, yox, bizim öz kompüterimiz var. Və iddialı adamların adlarını həmin kompüterə daxil edəndə məlum olacaq ki, onlar qapıdan içəri keçə bilməzlər.

Nəticədə insanlarda elmi-texniki tərəqqinin son nailiyyətlərinə inamsızlıq yaranacaq, gedib sektalara-filana qoşulacaqlar.

Elə Harari də bu işin gələcəyini yaxşı görmür, deyir, müvafiq alqoritm qəddar rejimlərin əlinə düşərsə, nəticələr qorxunc olacaq, "rəqəmsal diktatorluq"lar yaranacaq.

Bax, buna da inanıram. İnsan oğlu elə bir tipdir ki, özünə sərfəli olanda, öz komfortu, kalorisi üçün hər işə qol qoya, hər yaramazlığı başından aşıra bilər.

# Sənaye müəssisələri Bakıdan kənara köçürüləcək

## Mütəxəssislər deyir ki, paytaxtda cəmi iki müəssisə var

**Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, sənaye müəssisələri paytaxtdan köçürüləcək. Onun sözlərinə görə, Bakının yeni baş planı hazırlanır, şəhərdə sıxlığın azaldılması üçün müvafiq tədbirlərin görülməsi, sənaye müəssisələrinin paytaxtdan kənara çıxarılması nəzərdə tutulur.**

**Bakı rəhbərinin dediyi sənaye müəssisələri hansılardır? Bu müəssisələrin Bakıdan çıxarılması üçün ərazi varmı? Ekoloq, "Eko-Aləm" İctimai Birliyinin sədri Sevil Yüzbaşovanın dediyinə görə, Bakı lap əvvəldən sənaye şəhəri olub:** "Sovet vaxtı iri müəssisələr, zavodlar tikilib və uzun müddət fəaliyyət göstəriblər. Son illər ərzində keçid dövründə şəhərdə olan demək olar ki, bütün iri zavod və fabriklər öz fəaliyyətini dayandırıb. Baxmayaraq ki, digər sovet respublikalarında olan sənaye müəssisələri hələ də fəaliyyət göstərir. Bəzilərinin yerində MMC-lər, özəl müəssisələr, sexlər fəaliyyət göstərir. Zavodların, fabriklərin administrativ binaları, sexləri sökülüb, çox qiymətli avadanlıqlar məhv edilib, minlərlə insan işsiz qalıb. Halbuki bu binalardan müxtəlif məqsədlər üçün istifadə etmək olardı. Hətta bəzi zavodların sexlərini muzey kimi də istifadə etmək olardı".

**Ekoloq xanım bildirir ki, xarici ölkələrdə maraqlı bir təcrübəyə rast gəlib:** "Zavodun sexini konfrans zalı kimi istifadə ediblər, beynəlxalq tədbirlər keçirirlər. Bizdə isə hamısını söküb məhv ediblər. Heç tarixi abidə kimi də heç nəyi qoruyub saxlamayıblar. Təəssüf ki, belədir. Bir ekoloq kimi isə təbii ki, şəhər içərisində ətraf mühiti, atmosfer havasını zəhərləyən müəssisələrin olmasını mən də istəmərəm. Ətraf mühitə ziyan vuran, onu kirləndirən fəaliyyətlərin əleyhinəyəm.

Tutaq ki, qalan nə müəssisə varsa onu da bağlayıb, şəhərdən kənara daşıyacaqlar, iqtisadi cəhətdən nə qədər ziyanlı və ya sərfəli olacaq bunu deyə bilmərəm. Ancaq onu qeyd etmək istəyirəm ki, ətraf mühitə ziyanlı təsiri olan müəssisələri daha təmiz ərazilərə köçürüb, yeni əraziləri çirklənməyə məruz qoymaq olmaz. Yaxşı olardı ki, bu müəssisələrin rəhbərlərinə dəstək verilsin ki, onlar yeni texnologiyalardan istifadə edərək, öz müəssisələrinə yeni, ətraf mühitə ziyanlı təsiri az olan avadanlıqlar alsınlar və işlərini yenidən qursunlar. Yəni yeni texnika və texnologiyalardan istifadə etmək imkanları olsun ki, ətraf mühiti çirkləndirməsinlər".



**Bakı Baş Tikinti İdarəsinin rəisi və Bakı Şəhər Sovetinin sədrinin 1-ci müavini vəzifəsində işləmiş Əzim Məsimov da hesab edir ki, Bakıda köçürüləcək iri müəssisə qalmayıb:** "Bu müəssisələr haradadır, göstərsinlər görək? İki neft emalı zavodu var - birini gələn ildən sökəcəklər, ərazisini də verəcəklər "Ağ şəhər"ə. Digərini isə yenidən qururlar, müasir texnologiyalar quraşdırırlar. Başqa elə bir zavod-fabrik qalmayıb axı Bakıda? Nəyi köçürəcəklər? Tekstil, yüngül sənaye, yeyinti sənayesi müəssisələrinin hamısı bağlanıb, dağıdılıb. Hər hansı bir məsələni qaldıranda gərək əlində faktın ola. Bakının rəhbərliyi bu gün şəhərdə yığılıb qalan problemlərin həllini ilk plana çəkməlidir. Şəhərin kanalizasiya, yol problemləri var. Kanalizasiya sistemi tamamən yenidən qurulmalıdır. Yolların kənarlarında vaxtilə özbaşına o qədər ticarət, iaşə obyektləri tikiblər ki, hər yerdə sıxlıq yaranıb. Bunun qarşısının almağın yollarını fikirləşmək lazımdır. Şəhərin baş planında ilk növbədə bu problemlərin aradan qaldırılması üçün tədbirlər əksini tapmalıdır".

Onu da qeyd edək ki, hazırda Bakıda iki neft emalı zavodu var. Bunlardan biri "Azərneftyağ"dır ki, 1880-ci illərdən fəaliyyət göstərir. Sovet dövründə 8 milyon tona qədər neft emalı gücü olub, ancaq son illər emal gücü 1-1,5 milyon tona düşüb. İkinci neft emalı müəssisəmiz indi H.Əliyev adına NEZ-dir. O, 1953-cü ildə tikilib. 1983-cü ildə modernizasiya edilib və 2015-ci ildən əsaslı şəkildə yenidən qurulur. "Azərnetyağ"da hazırda ancaq bitum qurğusu fəaliyyət göstərir. H.Əliyev adına NEZ-də yeni bitum qurğusu tikilərək bu günlərdə istifadəyə verili. Buna görə də "Azərneftyağ" 2019-da demontaj olunmalıdır.

Qeyd edək ki, bir neçə il əvvəl H.Əliyev adına NEZ-in də bağlanması planları var idi. 2009-cu ildə prezident İlham Əliyevin sərəncamına əsasən ölkədə yeni Neft, Qaz emalı və Neft-kimya Kompleksinin inşası ilə bağlı komissiya yaradılıb. Dövlət Neft Şirkəti (SOCAR) tərəfindən hazırlanmış təkliflər paketini hökumət təsdiqləyib. Yeni kompleksin 2018-2020-ci illərdə istifadəyə verilməsi nəzərdə tutulurdu. Kompleksin tərkibinə Qaz Emalı Zavodu (ildə 10 mlrd. kubmetr istehsal gücü), Neft Emalı Zavodu (ildə 10 mln. ton istehsal gücü), Neft Kimya Zavodu (ildə 1,8 mln. ton hazır məhsul), Enerji Bloku və s. yardımçı infrastruktur daxil olacaqdı. Kompleksin istismara verilməsi ilə Bakı və Sumqayıt şəhərlərində yerləşən qaz emalı, neft emalı və neft-kimya sahələri üzrə köhnə istehsal güclərinin istismardan çıxarılması nəzərdə tutulurdu. Lakin sonradan neft emalı zavodunun tikintisi planı təxirə salındı. Belə ki, neftin dünya bazar qiymətinin ucuzlaşması bu layihənin qrafikinə ciddi təsir göstərdi. 2014-cü ildə məlum oldu ki, neft emalı zavodu bu layihənin ikinci mərhələsində inşa ediləcək və 2032-ci ildə istismara veriləcək. Ona qədər isə H.Əliyev adın NEZ 2 milyard dollarlıq sərmayə hesabına yenidən qurulacaq.

❑ **Dünya SAKİT, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 280 (7169) 28 dekabr 2018

**Ermənistanın baş nazir əvəzi 27 dekabrda Nikol Paşinyan Rusiya paytaxtına səfər etdi. Səfərin detalları yəqin ki, qapalı saxlanılacaq. Amma elə təyyarədəcə onun selfi çəkib sevincək "Moskvaya uçuruq" yazması müzakirələrə səbəb oldu. Baxmayaraq ki, Ermənistanın hökumət başçısının həll etməli olduğu ciddi problemlər var idi. Beynəlxalq Strateji Araşdırmalar Mərkəzinin rəhbəri Eldar Namazov "Yeni Müsavat"a durumla bağlı olduqca maraqlı fikirlər söylədi.**



# "Azərbaycan ordusunun ikinci əməliyyatı lazım olacaq"

## Eldar Namazov: "Paşinyanın bu selfisi və sevinc dolu komenti yalnız onunla bağlıdır ki, ay ermənilər, Moskva mənə oraya səfər etməyə icazə verib, mən Putini görəcəyəm!"

***- Eldar bəy, sizcə, Nikol Paşinyan Rusiya səfərindən necə qayıdacaq, hakimiyyətinə qarantiya alacaqmı? Kritik münasibətlər fonunda onun "Moskvaya uçuruq" mesajının arxasında nələr dayanır?***

- Əslinə qalsa, bu səfər hansısa uğurlu nəticələrlə yekunlaşa bilməz. Bu, mümkün deyil. Belə bir vəziyyəti Paşinyan özü yaradıb. Öz çıxışlarında heç cür reallığa uyğun olmayan illüziyalar təbliğ edib, "biz belə dəyişəcəyik", "xarici siyasətimizdə dəyişikliklər olacaq", "biz Rusiya ilə bərabərhüquqlu münasibətlər quracağıq" və s. Bunlar hamısı reallığa uyğun olmayan illüziyalardır. Ermənistan kimi balaca, Rusiyadan tam asılı vəziyyətdə olan ölkə öz sərhədlərinin qorunmasını, ordusunu, iqtisadiyyatını, hətta dəmir yolunu, qaz, elektrik sahəsini, AES-ini Rusiyaya etibar edən bir ölkədən söhbət gedir. İrəvanda biskvit fabrikindən başqa, bütün əhəmiyyətli obyektlərin hamısı Rusiyanın nəzarətindədir.

***- Üstəlik, hava məkanına da Rusiya nəzarət edir...***

- Bəli. Mən hələ demirəm ki, Ermənistanın Türkiyə, ya İranla sərhədində ruslar dayanıb. ABŞ-dan, Avropadan xarici qonaqlar Ermənistanda gələndə onları İrəvan aeroportuna rus sərhədçiləri qarşılayır, onları yoxlayırlar. Yəni faktiki olaraq, Rusiyanın bir vilayəti statusuna malik olan "dövlət"in rəhbəri bəyan edir ki, biz qısa müddətdə Rusiya ilə bərabərhüquqlu münasibətlər quracağıq. Təbii ki, bu bəyanatların arxasında heç bir reallıq dayanmır. Paşinyanın da bu səfərindən heç bir müsbət nəticə gözləməyə dəyməz.

***- Bəs niyə bu qədər sevincək görünməyə çalışırdı?***

- Paşinyanın selfi çəkib bunu sevinc dolu komentlə yayması başqa şeydən xəbər verir. Seçkilərdən sonra Putin başda olmaqla KTMT-nin digər üzvləri Paşinyanı qələbə münasibətilə təbrik etmədilər. Avropa, ABŞ tərəfindən təbriklər gəldi, amma Rusiya təbrik etmədi. Rus diplomatları bu xoşagəlməz halı yumşaltmağa çalışdılar ki, burada protokol məsələləri var. Amma erməni mətbuatı onlara xatırlatdı ki, vaxtilə Serj Sərkisyan belə seçkiləri udanda Putindən dərhal təbriklər alırdı. Robert Köçəryan da seçkilərdə qalib gələn kimi bir neçə saatdan sonra təbriklər gəlirdi. Hətta bir neçə ay bundan əvvəl Putin Köçəryanın ad günü ilə bağlı onu təbrik etdi və Kreml saytında təbriklərini yerləşdirdi. Ona görə də Paşinyanın bu selfisi və sevinclə dolu komenti yalnız onunla bağlıdır ki, ay ermənilər, Moskva mənə oraya səfər etməyə icazə verib, mən Putini görəcəyəm! Yəni hələ mənim üstümdən tam xətt çəkməyiblər, məni qapıdan qovmurlar, mənə icazə verirlər ki, uçum, gedim, Putinin önündə dayanım, onunla danışım. Sevinc yalnız bununla bağlıdır.

***- Bu sevinc uzunmüddətli olacaqmı?***

- Nəticələr baxımından çox acınacaqlı bir vəziyyətdir. Hətta KTMT baş katibi məsələsi ilə bağlı da çox maraqlı vəziyyət yaranmışdı. Razılığa əsasən, Belarus nümayəndəsi general Zas bir-bir üzv olan ölkələrin paytaxtlarına səfər edib, ölkə başçıları ilə görüşüb onların razılığını almalı idi. Qazaxıstan, Qırğızıstan və Tacikistana səfəri haqda məlumat dərc olundu, amma Kremlin saytı və rus mətbuatı Putinlə görüş barədə heç nə yazmamışdı. Erməni mətbuatı son günə qədər palaz-palaz məqalələr çap edirdi ki, Rusiya öz sözünü deməyib. Müxtəlif ağlasığmaz "politoloji" konsepsiyalarla çıxış edirdilər ki, guya Putin də Belarusun hərəkətindən narazıdır, yəni Belarus-Azərbaycan birliyi Putini də narahat edir, Rusiya Ermənistanla birləşib türk-Belarus birliyinə qarşı bir cəbhədən çıxış edir kimi belə axmaq-axmaq şeylər yazırdılar. Ancaq ötən gün KTMT-dəki Rusiya nümayəndəsi bəyan edib ki, artıq 5 ölkənin razılığı var. O qeyd edib ki, Putin hələ 18 dekabrda Zası qəbul edib və onun təyinatı ilə bağlı razılıq məktubuna imza atıb. (Gülür). Ermənilərin heç bundan da xəbəri olmayıb.

> **"ABŞ-dan, Avropadan xarici qonaqlar Ermənistana gələndə onları İrəvan aeroportunda rus sərhədçiləri qarşılayır"**

***- Eldar bəy, ermənilər vaxtaşırı KTMT-də veto hüquqlarının olmasından danışırlar. Gah deyirlər Azərbaycan quruma üzv olsa, bu hüquqdan istifadə olunacaq. İndi də KTMT baş katibliyi məsələsində eyni iddialar eşidilir. Bu iddianın əsası varmı?***

- Bu, çox maraqlı mövzudur. Onlar bunu bir neçə dəfə ən yüksək səviyyədə deyiblər. Paşinyan və XİN tərəfindən bəyan olunub. Çox maraqlı və acınacaqlı vəziyyətdir. KTMT-nin baş katibi ilə bağlı qalmaqal başlayanda mən həmin təşkilatın nizamnaməsini götürüb onunla diqqətlə tanış oldum. Mənə 10 dəqiqə vaxt lazım oldu ki, orada konsensus məsələsinin yalnız şüarda olduğunu bilim. Nizamnamənin içərisində "Konsensus - 1" mexanizmi göstərilib. Yəni bir ölkə başqa üzvlərin ümumi qərarının əleyhinə getsə, həmin nizamnaməyə görə, o ölkə səsvermədən uzaqlaşdırıla və qərar onun iştirakı olmadan qəbul oluna bilər. Bu, sadəcə olaraq, bir cümlə ilə deyilməyib. Bu mexanizm 2-3 bəndlə ayrı-ayrı bölmələrdə göstərilib. Orada bir yerdə deyilir ki, bir ölkə hansısa qərarla razılaşmasa, onun iştirakı olmadan da qərar verilə bilər. Başqa bir yerdə deyilir ki, razılıq verməyən ölkənin səsvermədən kənarlaşdırılması ilə bağlı qərarı qəbul edəndə onun səsi nəzərə alınmayacaq. Yəni bu, o deməkdir ki, bir ölkə başqalarına qarşı, ümumi rəyə qarşı gedirsə, həmin ölkələr yığışıb iki bənddən ibarət qərar qəbul edirlər. Birincisi, səs verirlər ki, bu məsələnin həllində filan ölkənin iştirakı nəzərdə tutulmasın, o səsvermədə iştirak etməsin. İkinci bəndlə isə həmin qərarı səsə qoyub həyata keçirirlər və həmin ölkə oyundankənar vəziyyətdə qalır. Şəxsən mənim üçün KTMT-nin nizamnamasini diqqətlə öyrənmək üçün on dəqiqə kifayət etdi.

Həmin ərəfədə də məni xaricdə çox böyük bir toplantıya dəvət etdilər. Orada beynəlxalq təhlükəsizlik məsələləri müzakirə olunurdu və Azərbaycanı mən təmsil edirdim. Ermənistanı isə təmsil edən adam 4 il ölkəsinin KTMT-də səlahiyyətli nümayəndəsi vəzifəsində çalışıb. Tədbirdə Londondan Kral İnstitutunun, yəni Böyük Britaniyada xarici diplomatiyanın beyin mərkəzinin direktoru, ABŞ-ın Avropada yaratdığı analitik strukturların rəhbərləri iştirak edirdilər. Mən orada KTMT-dəki Ermənistanla bağlı qalmaqala münasibət bildirəndə qeyd etdim ki, prinsipcə bu təşkilat "konsensus -1" prinsipi ilə də işləyə bilər, nizamnamədə bu, öz əksini tapıb. Ona görə də Ermənistan burada təklənə bilər. Odur ki, heç Ermənistanın razılığı olmadan da Belarusun nümayəndəsinin təyin olunması mümkündür. Mən bunu deyəndə 4 il KTMT-də İrəvanı təmsil etmiş Ermənistan nümayəndəsi yerindən etiraz etdi, orada belə bir şey yoxdur, bu təşkilat yalnız konsensus prinsipi ilə işləyir. Ona görə də Ermənistan həm bu məsələdə, həm də Azərbaycanın üzvlüyü məsələsində veto hüququndan istifadə edə bilər. Təbii ki, orada çox ciddi adamlar təmsil olunurdular. Onların qarşısında belə bir mübahisə yarananda buna aydınlıq gətirmək lazım idi. Mən qısa müddətdə internet vasitəsilə həmin təşkilatın nizamnaməsini əldə etdim və bütün iştirakçılara göstərdim ki, burada mexanizm var. Onlar oxudular və çox təəccüb etdilər ki, Ermənistanı 4 il həmin təşkilatda təmsil edən adamın bundan xəbəri yoxdur. Nəinki ermənilərin, heç bir ölkənin orada veto hüququ yoxdur. İki gün bundan əvvəl Belarusun nümayəndəsi general Zas bəyanatla çıxış etdi və elan etdi ki, artıq 5 ölkə razılıq verib. Xüsusi qeyd etdi ki, prinsipcə, Ermənistanın razılığı olmadan da bu qərar həyata keçirilə bilər, bizim nizamnaməmiz buna imkan verir, sadəcə olaraq, biz indi Ermənistanın da ümumi konsensusa qoşulmasını gözləyirik. Yəni ilk dəfə olaraq KTMT-ni təmsil edən adam açıq bəyan etdi ki, bizim nizamnaməmizdə konsensus prinsipi yoxdur. Deməli, artıq 5 ölkə Zasa dəstək veribsə, rəsmi olaraq təyinata imza atıbsa, faktiki olaraq artıq qərar qəbul olunub. İndi Ermənistan ya konsensusa qoşulacaq və siyasi məğlubiyyətini etiraf edəcək, ya da dirənəcəksə, bu təşkilatın tarixində ilk dəfə olaraq hansısa ölkəyə qarşı "Konsensus -1" prinsipini həyata keçirəcəklər və İrəvanın rəyini nəzərə almadan həmin adamı təyin edəcəklər. O cümlədən digər məsələlərdə. İndi Rusiyanın təklifi ilə üzvlərdən başqa, bu təşkilatın tərəfdaşı statusu da müəyyənləşir. Yəni hansısa ölkə hələ üzvlüyə razı deyil, ancaq tərəfdaş olmaq istəyir, ancaq ona da müəyyən səlahiyyətlər verilir. O təşkilata üzv olan ölkələrin səlahiyyətlərinin bir qismi tərəfdaşlara da şamil olunacaq. Ermənilər çox narahatdır ki, bu, Azərbaycana görə edilir. Azərbaycan müstəqil ölkədir, "Qoşulmayanlar Hərəkatı"nın üzvüdür və Qarabağ problemi həll olunmadan Azərbaycan Ermənistanla heç bir hərbi blokda təmsil oluna bilməz, bunu hamı başa düşür. Ona görə də erməni tərəfi çox ehtiyat edir ki, Azərbaycana portnyor statusu verilə bilər və Azərbaycan bir çox imtiyazlardan istifadə edə bilər. Odur ki, Paşinyan, Ermənistan XİN səviyyəsində hədələyirlər ki, ermənilər veto hüququndan istifadə edəcəklər. Ay bədbəxtlər, bu təşkilatın nizamnaməsinə baxın! Orada konsensus prinsipi yalnız deklarasiya, şüar kimi qeyd olunur.

***- Ermənistanın Rusiya, yaxud digər KTMT ölkələri ilə münasibətlərindəki konfrontasiya fonunda bizi 2019-cu ildə Qarabağla bağlı nə gözlədiyi hər şeydən çox maraqlandırır. Sizin proqnozunuz necədir?***

- Mən bu vəziyyətdə danışıqlardan bir nəticə gözləmirəm. Ötən Köçəryan və Sərkisyan dövründə, 20 il ərzində erməni cəmiyyətini kifayət qədər zombiləşdiriblər. Bu illərdə yalnız belə təbliğat aparılıb ki, işğal olunmuş heç bir ərazi qaytarıla bilməz. Hətta görün, bunlar nə qədər harınlayıb, qudurublar, xeyli sayda ictimai-siyasi xadimlər bəyan edirlər ki, hətta Azərbaycan Dağlıq Qarabağın "müstəqilliyini" tanısa belə, biz o torpaqları azad etməli deyilik, çünki o 7 rayon da Dağlıq Qarabağa "birləşib və erməni torpaqlarıdır". Deməli, onların zombiləşməsi pik nöqtəyə çatıb. Ona görə də bir neçə ayın ərzində bu yanaşmanı dəyişmək, dağıtmaq mümkün deyil. Xüsusən də bunu diplomatiya yolu ilə dəyişmək mümkün deyil. Mən yenə də o fikrimdə qalıram ki, Azərbaycan ordusunun ikinci əməliyyatı lazım olacaq. Biz çox konkret nəticələrlə ikinci hərbi əməliyyat keçirməliyik ki, erməni cəmiyyəti birdəfəlik o illüziyalardan uzaqlaşsın və reallığı başa düşsün. Anlasın ki, Ermənistanın bir ölkə kimi yeganə çıxış yolu yalnız Azərbaycanla danışıqlara getmək, işğal olunmuş əraziləri azad etməkdir. Ondan sonra Ermənistanın bir ölkə kimi gələcək inkişafına müəyyən bir şans yarana bilər.

❑ Elşad PAŞASOY,
"Yeni Müsavat"

Yeni Müsavat
N 280 (7169) 28 dekabr 2018

# Həbsdəki bloggerə yeni cinayət işi - hüquq müdafiəçiləri həbsxanaya gedəcək

**Həbsdə olan gənc blogger Mehman Hüseynova qarşı yeni cinayət işi açılıb. Azadlığa çıxmasına iki ay qalan gənc məhbus bu dəfə Cinayət Məcəlləsinin 315.2-ci maddəsi (hakimiyyət nümayəndəsinə xidməti vəzifələrini yerinə yetirərkən həyat və sağlamlıq üçün təhlükəli olan zor tətbiq etməklə müqavimət göstərmə) ilə ittiham olunub.**



**Səidə Qocamanlı:** "Artıq üçüncü dəfədir ki, belə bir hal yaşayırıq"
**Əliməmməd Nuriyev:** "Cinayət işinin açılması o demək deyil ki, şəxsin təqsiri sübut olunur"

Penitensiar Xidmətin bununla bağlı yaydığı məlumatda bildirilir ki, dekabrın 26-da 14 saylı cəzaçəkmə müəssisəsində plan üzrə aparılan növbəti ümumi axtarış-baxış tədbirləri zamanı məhkum Hüseynov Mehman Rafiq oğlu müəssisənin Rejim-nəzarət şöbəsinin böyük inspektoru, ədliyyə leytenantı Abdalov Əli Ələddin oğlunun qanuni tələblərinə tabe olmayaraq ona qarşı zor tətbiq edib, fiziki müqavimət göstərərək sonuncuya bədən xəsarəti yetirib, xidməti otaqda olan əşyaları dağıdaraq sındırıb.

Qeyd olunub ki, hadisə zamanı xəsarət almış Ə.Abdalova tibbi yardım göstərilməsi məqsədilə müəssisəyə təcili həkim briqadası çağırılıb: "Məhkum Mehman Hüseynovun üzərində axtarış aparılan zaman saxlanılması qadağan olan 461 manat məbləğində pul aşkar edilərək götürülüb. Bakı şəhəri Qaradağ Rayon Prokurorluğu tərəfindən hadisə yeri müayinə olunub və aidiyyəti üzrə araşdırma aparılır".

Məlumat üçün bildirək ki, M.Hüseynov 2017-ci ilin martın 3-dən həbsdədir. O, Suraxanı Rayon Məhkəməsinin qərarı ilə 2 il müddətinə azadlıqdan məhrum edilib. Qərar Nəsimi Rayon Polis İdarəsinin rəisi Musa Musayevin xüsusi ittiham qaydasında etdiyi şikayət əsasında çıxarılıb. Blogger Cinayət Məcəlləsinin 147.2-ci (böhtan, ağır və ya xüsusilə ağır cinayətdə ittiham etməklə böhtan atma) maddəsi ilə ittiham olunub.

**Hüquq müdafiəçisi Səidə Qocamanlı məsələ ilə yaxından maraqlanacaqlarını bildirdi:** "Belə bir halın baş verməsinə çox təəssüfləndim. Mehmanın azadlığa çıxmasına iki ay qalmışdı. Martın ilk günlərində azadlığa buraxılmalı idi. Belə bir hadisənin həqiqət olub-olmaması ilə bağlı nəsə bir söz deyə bilmərəm. Çünki məlumatı təzə almışıq. Mütləq məsələni araşdıracağıq. Artıq üçüncü dəfədir ki, belə bir hal yaşayırıq. Mehman kimi daha iki məhbusa indiyə qədər azadlığa çıxmalarına az müddət qalmış əlavə maddələrlə cinayət işi açılıb. Hazırda onlar da həbsxana həyatlarına davam edirlər. Bunlar yaxşı hal deyil. Biz çalışırıq ki, siyasi məhbuslarla bağlı siyahıları bağlayaq. İstəyirik ki, bu tipli məhbusların hamısı azadlığa çıxsın. Bu problem Azərbaycanın başı üzərindən yığışdırılmalıdır. Uzun müddətdir "Domokl qılıncı" kimi başımız üzərindən asılıb, bundan da istifadə edirlər, hərənin ağzından bir avaz gəlir. Yerindən duran da siyahılar hazırlayır. Buna şərait yaratmaq olmaz. Bunlar xoşagəlməyən hallardır, həm ölkəmiz, həm hüquq müdafiəçiləri, həm də ölkəmizdəki hüquq müdafiə təşkilatları üçün. Düşünürəm ki, bu işlərin baş verməsində kiminsə marağı var. Onlar çalışırlar ki, bu problem gündəmdən düşməsin. İstəyirlər ki, bu problem Azərbaycan üçün beynəlxalq aləmdə daim qınaq obyekti olsun. Mehmanın olduğu həbsxanaya gedib bu məsələ ilə yaxından maraqlanacağıq".


Səidə Qocamanlı


Əliməmməd Nuriyev

**Əfv Komissiyasının və Ədliyyə Nazirliyi yanında Penitensiar Xidmətə Nəzarət üzrə İctimai Komitənin üzvü Əliməmməd Nuriyev M.Hüseynova qarşı açılan cinayət işi ilə bağlı danışmağın tez olduğunu söylədi:** "Komitə üzvləri məsələ ilə bağlı əlavə məlumat alacaqlar. Həbsxanaya mütləq getmək lazım olacaq. İndidən nələrisə demək düşünürəm ki, istintaqın gedişinə təsir edə bilər. Onu da deyim ki, cinayət işinin açılması o demək deyil ki, şəxsin təqsiri sübut olunur. Yəqin bununla bağlı müvafiq araşdırmalardan sonra qərarlar qəbul olunacaq. Əgər onun əməlində cinayət tərkibi varsa, iş məhkəməyə göndəriləcək. Bu gün qəti bir fikir söyləmək düzgün olmaz. Hər halda, tərəflər müəyyən iddialar irəli sürüblər. Bununla bağlı Penitensiar Xidmətin açıqlaması da olub. Əlimizdə yalnız bu sənəd var. İddialar bizə o şəxsin təqsirli olub-olmadığını qəti şəkildə deməyə əsas vermir. Son qərarı məhkəmə verməlidir. İstintaqın nə qədər çəkəcəyi, yekunda hansı nəticəyə gələcəyi hələ ki tam aydın deyil. Şəxsin təqsirsizlik prezumpsiyası var. Bu günləri biz konstitusion prinsip olan buna söykənməliyik. Deyə bilmərik ki, Mehman Hüseynov bu və ya digər məsələyə görə təqsirlidir. Fikirlər söyləməkdə tələsməməyin tərəfdarıyam. Güman edirəm ki, bütün məsələlər obyektiv olaraq həyata keçiriləcək. Biz qəti fikir söyləməyə, qəti şəkildə qənaətə gəlməyə tələsməməliyik".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

# Baldızı oğlunu həbsə göndərən Arif Əsgərov oğluna dəbdəbəli toy etdi



## Mərasimə 300 min manatdan çox vəsait xərcləndiyi haqda da məlumatlar var

**"Mənim günahsız olduğumu hamı bilir. Sadəcə, məmur övladlarının günahının cəzasını mən çəkirəm. Arif Əsgərovun oğlunun, icra başçısının oğlunun oyunlarına görə mən həbs edilmişəm. Elnar Əsgərov ölkəyə gətirdiyi malı dəfələrlə baha qiymətə dövlətə satıb. Mənim adımdan ayrı-ayrı şəxslərdən milyonlar alaraq faiz verib. Arif Əsgərov bu işlər başlayandan zərərçəkmişlərə 40 milyon ödəyib. Mən isə heç bir günahım olmadan həbsdəyəm. Məmur övladları öz imkanlarından istifadə edib məni günahkar çıxardılar. Onlar indi kef edir, mən isə gün sayıram. Bu işlər 2013-cü ildən davam edir. Günahım olsaydı, o zamandan həbs edilərdim. İndi də azadlığa çıxardım. Mən Apelyasiya Məhkəməsində dəmir yolu idarəsində milyonların necə ələ keçirildiyini sənədlərlə ortaya qoyacağam. Bu qədər haqsızlıq, özbaşınalıq olmaz. Elnar Əsgərovla Qoşqar Zeynalov bacanaqdır. İndi onlar düşmən olub deyə, cəzasını mən çəkirəm. Məhkəmədən barəmdə bəraət hökmü çıxarmasını istəyirəm" - bu sözləri məhkəmədəki son çıxışında Arif Əsgərovun digər baldızı oğlu Rahib Hüseynov deyib. Bundan sonra məhkəmə Rahib Hüseynovun 9 il müddətinə azadlıqdan məhrum olunması haqda hökm çıxarıb.**


Arif Əsgərov

"Yeni Müsavat"a daxil olan məlumatda deyilir ki, Rahib Hüseynovun işi üzrə proses sona çatmaq üzrə olduğu günlərdə, dekabrın 25-də Arif Əsgərov oğlu Azər Əsgərova dəbdəbəli toy edib. "Buta Palace"də düzənlənən toy məclisinə xaricdən müğənnilər dəvət olunub. Məclisdə sabiq nəqliyyat naziri Ziya Məmmədovla yanaşı, hazırda vəzifədə olan şəxslər də iştirak ediblər. Toy məclisinə 300 min manatdan çox vəsait xərcləndiyi haqda da məlumatlar var. Qeyd olunur ki, Arif Əsgərov toy məclisinə oğlunu həbs etdirdiyi baldızının qohumlarını dəvət etməyib.

Yada salaq ki, Rahib Hüseynov məhkəmədə günahsız olmasının sübutu kimi xalası oğlu Elnar Əsgərovun tapşırıqlarını sübuta yetirən kitabçalar təqdim edib.

Həmin kitabçalarda Elnar Əsgərovun gündəlik xərcləri və görülən işlərlə bağlı ayrılan məbləğləri qeyd olunub. Rahib Hüseynov 2013-cü ildə həbs edilmədən öncəyə qədər həmin kitablarda görülən işlər, Elnar Əsgərovun aldığı məbləğləri yazıb. Hüseynov həmin 5 kitabda ayrı-ayrı şəxslərdən aldığı, iş üçün ayrılan milyonları qeyd edib. Həmin kitablarda xeyli sayda vəzifəli şəxslərin adının keçdiyi məlum olub. O kitablarda qeyd edilən məbləğlər 20-25 milyondur. Alınan pullarla Arif Əsgərovun oğlu dəmiryolu üçün xaricdən avadanlıqlar alaraq dövlətə baha qiymətə satıb. Qazancdan isə pul aldığı şəxslərə də faiz verib. Məlum olub ki, kitablarda adı keçən həmin şəxslər Arif Əsgərovun oğlu Elnar Əsgərova verdikləri pullar qarşılığında xeyli qazanc əldə ediblər. Pulların alınması və aylıq faizlərin verilməsi, "qara mühasibatlıq" işinə də R.Hüseynov nəzarət edib. R.Hüseynov 4 milyon 300 min manatlıq dələduzluqda ittiham edilir. Bundan başqa, R.Hüseynov vətəndaş Namiq Mehdiyevə də qarşı dələduzluq edib. Elan olunmuş ittiham üzrə R.Hüseynov özünü təqsirli bilmədiyini deyib. Təqsirləndirilən Hüseynov deyir ki, ona qarşı irəli sürülən bütün ittihamlar əsassızdır. Çünki qeyd edilən bütün işləri Elnar Əsgərov edib. Ayrı-ayrı şəxslərdən külli miqdarda pullar alınması, onlara faizlər verilməsi, xaricdən gətirilən malların dövlətə baha qiymətə satılması və digər işlər Elnar Əsgərovun nəzarətində olub. Rahib Hüseynov isə Elnarın "qara mühasibat"lığına nəzarət edib. Pullar bir neçə dəfə Rahib Hüseynov vasitəsilə alınıb. Maraqlıdır ki, Elnar şəxsən özünün aldığı pulları geri qaytarıb, amma Rahib Hüseynov vasitəsilə ona çatdırılan pulları ödəməkdən imtina edib. Bildirib ki, həmin pullar Rahib Hüseynov tərəfindən ələ keçirilib.

Arif Əsgərov 2004-2015-ci illərdə "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) sədri vəzifəsində çalışıb. A.Əsgərov 2015-ci ildə prezidentin fərmanı ilə tutduğu vəzifədən azad edilib. Başqa bir fərmanla o, nəqliyyat nazirinin müavini təyin edilib. Ziya Məmmədov postunu itirən zaman o da vəzifəsiz qalıb. Bu işdə də Arif Əsgərovun oğlu Elnar Əsgrovun da adı keçir. O, bir müddət ölkəni tərk etmişdi. Lakin sonradan Bakıya qayıdaraq məhkəmə prosesində şahid kimi ifadə vermişdi. O, bu işlərdə Hüseynov qardaşlarını ittiham edərək özünü məsuliyyətdən kənarda qoymağa çalışmışdı.

❑ E.MƏMMƏDƏLİYEV,
"Yeni Musavat"

YENİ MÜSAVAT
N 280 (7169) 28 dekabr 2018



# Abutalıbovun kadrları işdən çıxarılır, həbslər də ola bilər

## Hesablama Palatası BŞİH-in yalnız bir qurumunun audit nəticəsində külli miqdarda mənimsəmə faktı ortaya çıxarıb

**Noyabrın 15-də Bakı Şəhər İcra Hakimiyyətinin (BŞİH) başçısı təyin edilən Eldar Əzizov meriyada köklü kadr dəyişikliklərini davam etdirir. Dekabrsn 26-da BŞİH başçısı Aparatının Hüquq şöbəsinin müdiri Sani Nəsibov, Əsaslı tikinti və təmir şöbəsinin müdiri Cüneyit İsmayılov və Kadr məsələləri sektorunun müdiri Gülarə Mürsəliyeva vəzifələrindən azad edilib.**

Bununla bağlı şəhər icra hakimiyyətinin başçısı Eldar Əzizov müvafiq əmrlər imzalayıb. İcra hakimiyyətinin Kadr məsələləri sektorunun müdiri vəzifəsinə İlahə Həsənzadə təyin edilib.

Qeyd edək ki, vəzifədən azad edilən hər 3 şöbə müdiri keçmiş mer Hacıbala Abutalıov tərəfindən vaxtilə vəzifəyə təyin edilib. Sani Nəsibov isə H.Abutalıbov Suraxanının icra başçısı işlədiyi dövrdə onunla birlikdə işləyib.

Qeyd edək ki, Eldar Əzizov hələ BŞİH başçısının səlahiyyətlərini icra edəndə qurumun Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri Namiq Məmmədov vəzifəsindən azad edilib və onun yerinə Ayaz İmaməliyev təyin olunub.

Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri Vahid İsmayılov da vəzifəsindən azad olunub. Onun vəzifəsinə Coşqun Cəbrayılov təyinat alıb.

Bundan başqa, BŞİH-in Aparat rəhbəri Rasim Quliyev səhhəti ilə əlaqədar öz ərizəsi ilə vəzifəsindən azad olunub. Onun yerinə Elgün Həbibullayev təyin olunub.

BŞİH-də işçilərin orta yaş həddi 60-dan yuxarıdır. Kadr dəyişiklikləri də İH-də yenilənmə və gəncləşmə siyasəti ilə bağlı olduğu iddia olunur.

Yada salaq ki, 2001-ci ilin yanvar ayından BŞİH başçısı olan Hacıbala Abutalıbov bu ilin aprelində prezident İlham Əliyev sərəncamı ilə işdən çıxarılıb. O, baş nazirin müavini təyin edilib. Hacıbala Abutalıbovun 17 illik mer dönəmində BŞİH-in tabeliyində olan müəssisələrdə baş verən korrupsiya ilə bağlı ölkə mətbuatında çoxsaylı məlumatlar dərc edilib. Bir müddət əvvəl BŞİH-də inventarlaşdırma işlərinin aparılması ilə bağlı komissiya yaradılıb. Bununla bağlı BŞİH başçısı səlahiyyətlərini icra edən Eldar Əzizov sərəncam imzalayıb. Yoxlamalar icra hakimiyyətinin bütün strukturlarında, o cümlədən Bakı Lift-Təmir İstehsalat Birliyində də tam və hərtərəfli şəkildə aparılır. Bu inventarlaşdırma BŞİH-in saysız-hesabsız qurumlarında yol verilən çox ciddi pozuntuları, korrupsiya və mənimsəmələri üzə çıxartmaq prosesinin başlanğıcıdır. Onun gedişində çoxsaylı meriya məmurlarının vəzifələrini itirəcəyi, hətta hüquq-mühafizə orqanlarında cavab verəcəyi istisna olunmur.



BŞİH-də korrupsiya və rüşvətxorluğun ən çox tüğyan etdiyi sahələrdən biri isə təmir-tikinti sahəsi olub.

Məlumata görə, Hesablama Palatası BŞİH-in yalnız bir qurumunun auidit nəticəsində külli miqdarda mənimsəmə faktı da Eldar Əzizova təqdim edilib.

Güman edilir ki, həyata keçirilmiş auditin nəticələri hüquq-mühafiə orqanlarına göndəriləcək və istintaq başlayacaq. Bu isə Hacıbala Abutalıbovun kadrları ilə bağlı ilk cinayət işinin başlanması demək olacaq. Bununla da Hacıbala Abutalıbovun məsuliyyətini gündəmə gətirəcək.

Ümumiyyətlə, BŞİH-də baş vermiş korrupsiyanın bir çox məmurların istintaqa cəlb olunması ilə nəticələnəcəyi iddia olunur. Hələlik Hacıbala Abutalıbov baş nazirin müavini kimi toxunulmazdır. Ancaq hər kəs bilir ki, onun bu toxunulmazlığına istənilən an son qoyula bilər. Digər tərəfdən, Hacıbala Abutalıbovun kadrlarının istintaqa cəlb olunması elə onun özünün də istintaqa cəlb olunması demək olacaq.

❑ **ORXAN, "Yeni Müsavat"**

# Sabiq nazir oğlunun xaricdəki biznesi ilə bağlı danışdı

## Hüseyn Bağırov: "Lətif Bağırov nə Almaniyada, nə də İngiltərədə hər hansı mülkün sahibi deyil"

**Elektron mediada keçmiş ekologiya və təbii sərvətlər naziri Hüseyn Bağırovun xaricdə mülklərinin olmasına dair siyahı dərc edib. Eks-nazirin oğlu və qızının xaricdə şirkətlər yaratdığı da həmin yazılarda vurğulanıb.**

Keçmiş nazir modern.az-a yazılı cavab göndərərək bildirib ki, yazılanlar həqiqət deyil: "Təəssüflə qeyd edirik ki, bəzi sosial şəbəkə istifadəçiləri dəqiqləşdirilməmiş, bəlkə də bəzən məqsədli şəkildə digərlərinin nüfuzuna xələl gətirə biləcək məlumatları yayımlayırlar.




Məlumat üçün bildirək ki, Qərb Universiteti qurularkən onun təsisçisi Hüseyn Bağırov nazir deyildi. Yazıda adıçəkilən şirkətlərin, mülklərin heç birinin sahibi nə Hüseyn Bağırov, nə də oğludur.

90-cı illərin ortalarında universitet hotelçilik ixtisasını gücləndirmək məqsədilə Hotelçilik Məktəbi yaradıb, onun nəzdində kiçik bir hotel də olub. Sonralar bu hotel öz hesabına nisbətən böyüyərək ortaölçülü bir hotelə çevrilib. 2000-ci ildə Hüseyn Bağırov nazir təyin edilərkən qanunun tələblərinə uyğun olaraq universitetin təsisçiliyindən imtina edib. Universitet bu illər ərzində tam şəffaf fəaliyyət göstərib, keyfiyyətli təhsili, eləcə də nümunəvi vergi ödəyicisi olması ilə seçilib. Universitet və ona yaxın təşkilatlar, şirkətlər tərəfindən, eləcə də Hotelçilik Məktəbi tərəfindən 2001-ci ildən bu günə qədər dövlət büdcəsinə 15 milyon manatdan çox vergi ödənilib.

Qərb Universiteti (indiki Qərbi Kaspi Universiteti) həm də yaxşı beynəlxalq əlaqələrə malikdir. Almaniyada adıçəkilən şirkəti də universitet təsis edib. Bu, universitetin hüquqi baxımından haqqıdır. Doğrudur, sonradan bu şirkət satılıb, direktor olaraq isə formal olaraq Lətif Bağırovun adı sənədlərdə qalıb. Əvvəlki halda da nə universitet, nə də Lətif Bağırov heç bir mülkün sahibi olmayıb, mülkiyyət sahibləri başqa şəxslər olub. Bu gün də Lətif Bağırov nə Almaniyada, nə də İngiltərədə hər hansı mülkün sahibi deyil. İngiltərədə şirkətlərin qurulması üçün cəhdlər edilib, ancaq bu cəhdlər yekunda uğursuzluqla nəticələnib, ya da şirkət qeydiyyatdan keçirilib, ancaq fəaliyyət olmayıb.

Arayış üçün bildiririk ki, Lətif Bağırov hərbi xidmətini ölkənin mürəkkəb nöqtələrindən birində çəkib, orada səhhətində ciddi problemlər yaranıb, buna baxmayaraq, Bakıya qayıdaraq, müalicə aldıqdan sonra yenidən hərbi xidmət yerinə qayıdıb. Vətən qarşısında borcunu əsgər kimi, daha sonra isə nümunəvi vətəndaş və vergi ödəyicisi kimi layiqincə yerinə yetirib. Məlumat üçün deyək ki, Lətif Bağırov bu gün Türkiyədə müəyyən kiçik biznes layihələr həyata keçirməyə cəhd edir. Bu da onun təbii haqqıdır.

Əgər dövlət qulluqçusu olsaydı, hansısa vəzifə tutsaydı, kimlərsə bunu Hüseyn Bağırovun təmin etdiyini deyəcəkdi. Və ya böyük biznesə sahib olsaydı, yəqin ki, yenə anoloji mövqe təkrarlanacaqdı. Atasının nazir və ya keçmiş nazir olmasına görə o, hər hansı bir fəaliyyətlə, o cümlədən bizneslə məşğul ola bilməzdimi?! Xaricdə, hansısa əlavə təsir imkanlarının mümkün olmadığı bir ölkədə gənc biznesmen həmvətənimizin kiçik biznes cəhdlərinə qarşı bu cür qısqanclıq təəccüb və təəssüf doğurur".



# İsgəndər Həmidov AXCP və Müsavat haqqında: "Heç kimi məcbur edə bilmərik ki..."

## İsgəndər Həmidov: "Həmin partiyalara da gələcək müttəfiq kimi baxırıq"

**""Müxalifətin zirvəsi" kifayət qədər güclü və mütəşəkkil keçdi".**

Bu barədə modern.az-a dekabrın 25-də KXCP-nin qərargahında baş tutan "Azərbaycanda mövcud ictimai-siyasi vəziyyət və müxalifətin vəzifələri" mövzusunda toplantıdan danışarkən keçmiş daxili işlər naziri İsgəndər Həmidov bildirib. O qeyd edib ki, zirvə toplantısının keçirildiyi zal müxalifət nümayəndələri ilə dolu olub: "Toplantını keçirdiyimiz qərargahda, hətta küçədə də müxtəlif partiyaların partiya nümayəndələri yığılmışdı. "Müxalifətin zirvəsi"nə diqqət yüksək səviyyədə idi. Müzakirədə fikir ayrılığı yaşanmadı. Bütün partiya təmsilçilərinin ortaq fikri bu idi ki, köklü, demokratik islahatlara getmək lazımdır".

**AXCP və Müsavat kimi aparıcı müxalif partiyaların toplantıya qatılmamasına gəlincə, İ. Həmidov bildirib ki, həmin partiyalara da gələcək müttəfiq kimi baxırlar:** "Heç kimi məcbur edə bilmərik ki, toplantıya qatılsın, ya qatılmasın. Toplantıda 26 partiya iştirak etdi. Bu çox yaxşı göstərici idi. Bəzi partiyalara biz xəbər etməmişdik. Hətta bizə zəng edib, haqlı şəkildə irad bildirdilər. Yanvar ayının 5-də ADP-nin qərargahında "Müxalifət zirvəsi"nin davamı olaraq əvvəlki toplantıda təqdim edilən sənədlərin müzakirəsi keçiriləcək".

**İsgəndər Həmidov onu da əlavə edib ki, partiya nümayəndələri gələn il bu cür toplantıların mütəmadi keçirilməsini planlaşdırıblar:** "Ən azı ayda bir dəfə, hətta bəzən situasiyadan asılı olaraq, hər həftə yığıncaq keçirəcəyik. Zirvəyə qatılan partiya nümayəndələri də bu təklifi müsbət qarşıladı.

Gələn il keçirilən toplantılara bu dəfə iştirak etməyən partiyaların nümayəndələrini yenə də dəvət edəcəyik. Elə saytınız vasitəsilə də çatdırmaq istəyirəm, kimin ürəyi istəyir, toplantılara qatıla bilər".

YENİ MÜSAVAT
N 280 (7169) 28 dekabr 2018

# Bəlkə dustaqları nəzarətçi qoyaq...



**Zamin HACI**
zaminhaci@gmail.com

"Əgər qara qutu qəza zamanı zədələnməyən materialdan düzəldilirsə, niyə təyyarənin özünü bütövlükdə qara qutunun materialından qayırmırlar?"
*(İki azərbaycanlının uçaqda dialoqundan)*

**Rəsul müəllimin sözü olmasın, "hesab edirəm ki" artıq bizim türmə sistemində ciddi islahatların vaxtı çatmışdır. Təzə türmələr, məhkəmələr tikilir, görüş otaqları remont olunur, dizayn etibarilə cəzaçəkmə obyektlərində vəziyyətin babatlaşması göz qabağındadır. Misal üçün, mən bugünlərdə şəhərdə üstünə "Penitensiar xidmət" yazılmış, xüsusi siqnallarla yolu boşaldıb sürətlə irəliləyən bir dustaq avtomobili gördüm ki, bəlkə, yalan olmasın, heç amerikalıların Quantanamo türməsində elə maşın yoxdur. İki göz gərək idi tamaşasına dursun. İki qol lazım idi qandalı taxıb basasan adamı bunun içinə, ləzzətlə şütüyəsən paytaxtda. Halbuki köhnə camaatımızın (Orxan bəy demiş, "köhnə azərbaycanlıların") yadına gələr, bizim dustaq maşınları kvadrat şəkilli, dranqlet sovet yük maşınlarından qayırılardı. Böyründə balaca pəncərəsi olardı, millət bunlara nədənsə "it maşını" adı qoymuşdu. Bəlkə də sovetin ilk vaxtlarında yiyəsiz küçə itlərini bu tip maşınlarla ovlayırmışlar. Rejissor Bortko-nun çəkdiyi "İt ürəyi" filmində təxminən bu tip maşınlarda it-pişik vurmağa gedirlər.**

Ancaq türmələrdə daxili vəziyyət heç ürəkaçan görünmür. Gah dustaqlar ölür, ölkəmizdəki inkişafdan zövq almaq istəmirlər, gah da hansısa manıs "vorzakonları" qatardan qaçırdır. Guya bu Həcərdir, qazamat dalını dəlib Qaçaq Nəbini azad edir. Doğrudur, həmin hadisələrə görə cəza alanlar da çoxdur, insaf naminə qeyd edək, sonra böhtançı adı qoyub bizi tutmasınlar. Hərçənd bir rus ata sözü də var, deyir, qazamatdan və dilənçilikdən heç kim sığortalanmayıbdır (ümid edirəm, Putin mənim rus folkloruna diqqətimi nəzərə alacaqdır). Həm də bu baxımdan zindanlarda islahatların aparılması vacibdir. Misal üçün, kimin ağlına gələrdi, Əli İnsanov 13 il türmədə oturacaq? Cahangir müəllim o boyda pulun içindən çıxıb həyata "qlazok"dan baxacaq? Axmaq kainatdır. Görəsən, dünyaya nöş gəlir insan? Nə isə.

Başqa bir ciddi nöqsan qazamatda xidmət üçün ölüvay personalın seçilməsidir. Artıq neçənci dəfədir bizə soraq gəlir ki, dustaq qazamatda hansısa zabiti basıb döyübdür. Özü də bunlar nəsə karate üzrə qara kəmər ustası, qaydasız döyüşü Həbib Nurməhəmmədovun atasından öyrənmiş idmançı, nə bilim, Ədəhim Nifteliyevlə "Qızıl top" almış futbolçu olsa dərd yarıydı. Fikirləşərdik neyləmək olar, gücləri bərabər deyilmiş. Dərd ondadır ki, bu türmə işçilərini döyənlər adətən arıq-uruq, xəstə, qoca dustaqlar olur. Misal üçün, bir dəfə xəbər gəldi ki, 70 yaşlı Əli İnsanov nəzarətçini necə döyübsə leşi qalıb. Əlbəttə, səhiyyə naziri işləmiş adam insanın zəif nöqtələrini bilər, bunu inkar eləmirik. (Yuxarıda yazdım: ədalət, insaf hər şeydən önəmlidir. Biz qələt edərik böhtan yazarıq. Sonra get nəzarətçi döy, bizə yaraşmaz, idmançı adamıq). Sonra dedilər 90 yaşlı yazıçı Əkrəm Əylisli aeroportun girişində nəzarətçini çırpıbdır. Düzdür, Əkrəm müəllimi ona görə tutmadılar, ancaq hər halda, nəzarətçinin beş qabırğasını, altı fəqərə sümüyünü, omba, bazu, ənsə, bud, bilək, said, falanqa, dümbül sümüklərini qırıq-qırıq eləmişdi. Deyilənə görə, yazıçı bu zaman "Mənim nəğməkar bibim" və "Xaos diktaturası" romanlarından istifadə edirmiş. Soyuq silah qismində.

İndi isə gənc bloqçu (ya da blogger - bunu düzgün yazmağı öyrənsək, adam azadlığa çıxacaq) Mehman müəllimin içəridə nəzarətçi leytenantı döyüb hospitala saldığı məlum olubdur. Dəhşətdir. Mehman müəllimi xəstəlikləri üzündən hətta əsgərliyə aparmayıblar. Belə əfəl birisi zabiti döyüb xəstəxanalıq edirsə, biz türmələrin lazımi dərəcədə qorunmasından necə əmin olaq? Bizim cinayətkarlardan, ya da cinayətkarların dinc əhalidən təcridinə arxayın ola bilərikmi? Onlar sabah nəzarətçiləri döyüb qaçarlar, beynəlxalq aləmdə biabır olarıq, ölkəmizin nüfuzu zədələnər.

Bir şey də maraqlıdır ki, dustaqlar azad olmağa az qalmış nəzarətçiləri şil-küt edirlər.(Mehman müəllimin 2 ayı qalırmış. Əli müəllim isə 4-5 aya çıxmalıydı, çıxası olmadı). Sanki içəridən çıxmaq istəmirlər. Görünür, türmələrdə şərait çox yaxşıdır. Qalır nəzarətçiləri gücləndirmək, ümid edək buna əncam çəkilər. Biz güclü dövlətdə yaşayırıq. Hər an bunu hiss edirik. Güclü dövlətin nəzarətçiləri də güclü olmağa borcludur. Bizim Qarabağ dərdimiz var.



# Bakının ilsonu şifrəli mesajları - Oqtay Əsədov Tehrana niyə getmişdi?

## Azərbaycanı "çəkic və zindan" arasına salmaq istəyirlər; təzə ildə güc mərkəzlərinin ölkəmiz uğrunda rəqabəti daha da sərtləşəcək; **rusiyalı politoloq:** "Bakı İrana qarşı ABŞ-la sıx əməkdaşlığa getməyəcək..."

**Başa çatmaqda olan ilin Azərbaycan üçün mühüm yekunlarından biri də şübhəsiz ki, ölkənin balanslı xarici siyasət kursunu daha bir il qoruyub saxlaması oldu. Olduqca önəmli coğrafiyada, müsəlman və xristian sivilizasiyalarının sərhədində və böyük güclərin kəsişən maraqları zonasında qərar tutan, üstəlik, zəngin karbohidrogen qaynaqlarına malik Azərbaycanı hər bir güc mərkəzi məmnuniyyətlə öz yanında görmək istərdi. Söhbət ilk növbədə Rusiyadan və Qərbdən (ABŞ-dan) gedir.**

2018-ci il də bu yöndə bir sıra cəhdlərlə yadda qaldı. Rusiya Bakını öz hərbi-siyasi orbitinə çəkmək üçün KTMT "kartı"ndan istifadə eləməyə çalışdı. Kremlə yaxın bir çox ekspert və KİV-lər Azərbaycanı şirnikləndirmək üçün "Rus NATO-su"nu gen-bol tərənnüm elədi. ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə köməkçisi Con Bolton isə bölgəyə, o cümlədən Azərbaycana və Ermənistana səfəri zamanı Bakı və İrəvanı üstüörtülü şəkildə Rusiyadan uzaqlaşmağın, İrana isə yaxınlaşmamağın vacibliyinə inandırmağa səy elədi.

Lakin rəsmi Bakı nə qədər çətin olsa da, daha bir il xarici siyasətdə tarazlığı qorumağı bacardı. Bunun nəticəsi idi ki, bu il (aprel və dekabr) Azərbaycan paytaxtı iki dəfə NATO və Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəislərinin görüşünə ev sahibliyi elədi. Bu, Azərbaycanın bölgədəki roluna verilən qiymətlə yanaşı, həm də onun avtoritetinin göstəricisi, eyni zamanda Bakının balansı siyasətinin anlaşıqla qəbul edildiyinin təsdiqi idi.

*****

Təhlillər göstər ki, Azərbaycan uğrunda Rusiya-ABŞ rəqabəti getdikcə güclənəcək. Azərbaycan prezidenti İlham Əliyev bu günlərdə "Rossiya-24" televiziyasına verdiyi geniş müsahibədə bu məqama dolayısı ilə işarə vurub.

"Biz proporsional azad siyasət yürütdüyümüzə görə bizə təzyiqlər də artır. Lakin bu təzyiqlər enerji faktoru ilə əlaqəli deyil. Bizi hansısa avantüraya çəkməkdir. Hansı ki, tamamilə bizim xalqımızın və ölkəmizin əleyhinədir", - deyə İlham Əliyev müsahibəsində bildirib. Dövlət başçısı vurğulayıb ki, ölkə daxilində heç bir potensial təhlükə yoxdur, təhlükələr xaricdən gətirilə bilər: "Buna görə də öz suverenliyimizlə bağlı məsələlərə çox diqqətlə yanaşırıq. Vətəndaşlarımızın təhlükəsizliyinə çox həssas yanaşırıq. Buna görə də Azərbaycanı hansısa beynəlxalq avantüraya çəkməyə çalışmaq həmişə fiaskoya uğrayıb. Yəqin ki, bu, kiminsə xoşuna gəlmir və biz periodik olaraq bu nəticəni görürük".

*****

Yeri gəlmişkən, Azərbaycan parlamentinin spikeri Oqtay Əsədov dekabrın 25-26-da İranda iki günlük səfərdə olub. İrana qarşı ABŞ sanksiyaları fonunda kifayət qədər həssas xarakter almış Bakı-Tehran münasibətlərinin perspektivi üçün bu ziyarət heç də təsadüfi, il sonu yekun xarakterli deyildi. Bu, öncəliklə Bakının Tehrana xoşməramlı reveransı kimi, nəhayət, balanslı kursdan çıxılmayacağı barədə həm qarşı tərəfə, həm də bütövlükdə qlobal güc mərkəzlərinə verilən aydın mesaj kimi qiymətləndirilə bilər. Yeni əslində Oqtay Əsədov Tehrana ölkə başçısı tərəfindən xüsusi missiya ilə göndərilib. Bunu onun Tehranda keçirdiyi çoxsaylı görüşlərin gündəliyi də təsdiq edir. Diqqət mərkəzində təkcə parlamentlərarası əlaqələr olmayıb.

"Azərbaycan və İranın dövlət başçıları arasında son dövrdə keçirilən intensiv görüşlər və aparılan danışıqlar əməkdaşlığımızın daha da dərinləşməsi üçün yaxşı zəmin yaradır". Bu fikir Oqtay Əsədovun rəhbərlik etdiyi nümayəndə heyətinin Tehranda keçirdiyi görüşlərdə səslənib. Nümayəndə heyəti Tehranda ilk olaraq İran prezidenti Həsən Ruhani ilə görüşüb. Rəsmi məlumatlara görə, görüşdə ölkələrimiz arasındakı münasibətlərin mövcud vəziyyəti və perspektivləri müzakirə olunub. Qeyd edilib ki, İranla Azərbaycan arasındakı münasibətlər tarixi köklərə və ənənələrə söykənir. Sonra nümayəndə heyəti İran İslam Şurası Məclisinin sədri Əli Laricani ilə görüşüb. Bu görüşdə də ikitərəfli münasibətlər, habelə parlamentlərarası əlaqələr, işçi qrupların fəaliyyəti və qanunvericilik sahəsində təcrübə mübadiləsi məsələləri müzakirə olunub. Səfər çərçivəsində Oqtay Əsədov İranın Milli Təhlükəsizlik üzrə Ali Şurasının katibi Əli Şəmxani və xarici işlər naziri Məhəmməd Cavad Zərif ilə də görüşüb. Görüşlərdə ölkələrimiz arasında həyatın müxtəlif sahələrində əlaqələrin inkişafı, parlamentlərarası münasibətlərin daha da dərinləşməsi, regiondakı ictimai-siyasi vəziyyət barədə fikir mübadiləsi aparılıb.

*****

Göründüyü kimi, səfər çərçivəsində ikitərəfli əlaqələrin bütün spektrləri, o cümlədən təhlükəsizlik məsələləri müzakirə olunub. Bir sözlə, Bakı və Tehran il sonu bir növ "saat əqrəbləri"ni tutuşdurmağa macal tapıb.

Maraqlıdır ki, bu səfər Rusiyada da diqqətlə izlənib. Məsələn, rusiyalı analitik Stanislav Tarasov "Reqnum" agentliyində dərc olunan məqaləsində yazıb ki, Bakı Oqtay Əsədovu Tehrana göndərməklə cənub qonşusu ilə bütün problemləri aradan qaldırıb, Vaşinqtonun Bakı-Tehran münasibətlərindəki pozuculuq cəhdlərini heç etməyə çalışır (axar.az).

**Onun sözlərinə görə, Azərbaycan İrana qarşı ABŞ-la sıx əməkdaşlığa getməyəcək:** "Hətta bunun üçün Moskva, Ankara, Tehran və Brüsselə geosiyasi dialoq formatını gücləndirəcək və bu paytaxtların hər biri ilə ikitərəfli münasibətlər gündəmdə olacaq. O səbəbə Azərbaycan-Rusiya münasibətlərinin yüksələn dinamikası təqdim edilir, Türkiyə ilə intensiv konsultasiyalar aparılır".

**Politoloq baş verənlər fonunda Qarabağ konflikti ilə bağlı mümkün gəlişmələrdən də danışıb.** "İntriqa odur ki, Azərbaycanın belə siyasəti ona müqavimət göstərən "inqilabçı" İrəvanın xarici siyasət uğursuzluqlarına işıq salır. Azərbaycan Dağlıq Qarabağ konfliktinin həll perspektivinə münasibətdə sülhməramlı ritorikası geniş siyasi və geosiyasi kontekstə uyğunlaşır. İlham Əliyev sələflərinin təcrübəsinə sahib olmayan Paşinyanı məğlub edir. Paşinyanın problemi nə Moskva, nə də Qərbdədir. Problem Bakının geniş və irimiqyaslı xarici siyasət manevrləri həyata keçirmək bacarığındadır", - deyə o əlavə edib.

Beləliklə, Azərbaycanı istarla "çəkic və zindan" arasına salmağa çalışsalar da, Bakı tarazlı siyasət hesabına hələ ki həm "yuxarı"nın, həm də "aşağının" zərbələrindən yayına bilir. Eyni zamanda "yaxın qonşu uzaq qohumdan yaxşıdır" deyimini də unutmur...

**❑ Siyasət şöbəsi, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 280 (7169) 28 dekabr 2018

**“Azərbaycanda heç bir potensial risk, fiziki, ideoloji, sosial, siyasi təhdid yoxdur”. Bunu Azərbaycan prezidenti İlham Əliyev “Rossiya-24" telekanalına müsahibəsində deyib. Azərbaycan dövlətinin başçısı bildirib ki, Azərbaycanın əhəmiyyəti və rolu təkcə enerji bazarında deyil, həm də bütövlükdə geosiyasi planda artır. Ölkə daha da inkişaf edir və regionda özünü təsdiqləmək üçün daha çox planları var.**



# Azərbaycanı avantüraya çəkmək istəyən hansı qüvvələrdir - prezidentin xəbərdarlığı

## Politoloq: “Onlar üçün ən önəmlisi öz strateji planlarını həyata keçirməkdir”

“Bizim inkişafa, apardığımız müstəqil siyasətə mütənasib olaraq bizə təzyiq də artır. Ancaq bu, enerji amilləri ilə əlaqədar deyil. Bu, bəzən bizi xalqımıza və ölkəmizə tamamilə yad olan hansısa avantüralara cəlb etmək cəhdləri ilə bağlıdır”, - deyə İlham Əliyev bildirib.

**Ölkə başçısı daha sonra deyib:** “Bizim vətəndaşların rahatlığını yalnız kənardan poza bilərlər. Ona görə də biz öz suverenliyimizlə bağlı məsələlərə, təhlükəsizliyimiz, vətəndaşlarımızın təhlükəsizliyi məsələlərinə çox həssaslıqla yanaşırıq. Ona görə də Azərbaycanı hansısa beynəlxalq avantüralara cəlb etmək cəhdləri həmişə fiaskoya uğrayıb. Yəqin ki, bu, kiminsə xoşuna gəlmir və arabir biz bunun nəticələrini görürük. Bir qayda olaraq bunlar bizim, ümumiyyətlə, iştirak etmədiyimiz beynəlxalq təşkilatların qəbul etdiyi hansısa qətnamələrdə ifadə olunur. Həm də qəribədir ki, bizim əleyhimizə olan qətnamələri üzvü olmadığımız və üzv olmağa hazırlaşmadığımız strukturlar qəbul edirlər. Bax, bu, necə deyərlər, daha çox təbəssüm doğurur. Həmçinin əlbəttə, mətbuata yalançı təbliğat tullantıları atılır. Bu, qarayaxma, şantaj və təzyiq göstərmək cəhdlərinin sevimli üsuludur. Amma bizdə buna qarşı immunitet yaranıb. Azərbaycan vətəndaşları çox yaxşı başa düşürlər ki, bu informasiya tullantıları cəhdlərinin arxasında nə durur. Azərbaycanın inamlı, davamlı, təhlükəsiz və sabit inkişafı bizə ziyan vurmaq istəyənlərə ən yaxşı cavabdır”.

Bəs ölkəmizi avantüralara çəkmək istəyən qüvvələr hansılardır, bunda kimlər maraqlı ola bilərdi? Azərbaycan prezidenti “Bizim əleyhimizə olan qətnamələri üzvü olmadığımız və üzv olmağa hazırlaşmadığımız strukturlar qəbul edirlər” deyərkən Avropa İttifaqını nəzərdə tuta bilərmi?

**Politoloq Elçin Mirzəbəyli “Yeni Müsavat”a bildirdi ki, Azərbaycan xalqı ölkənin ərazi bütövlüyü, yaxın və uzaq milli strateji hədəfləri, müstəqilliyi və suverenliyi, təhlükəsizliyi ilə bağlı məsələlərdə həmrəydir, birdir və güzəştsizdir:** “Bu fikirlər cənab prezidentin müsahibəsinin ana xəttini təşkil edir və real mənzərəni əks etdirir. Diqqət yetirsəniz, prezident İlham Əliyev ”bizim vətəndaşların rahatlığını yalnız kənardan poza bilərlər" deyir. Yəni Azərbaycan xalqı və dövləti öz müstəqilliyini, suverenliyini, dövlətçiliyini qorumaq əzmində, gücündədir. Kənardan müdaxililər isə yalnız müəyyən zaman kəsiyində insanlarımızın rahatlığını poza bilər və biz müstəqilliyimizin 27 illik tarixi ərzində dəfələrlə belə faktlarla qarşı-qarşıya qalmışıq. Bu gün dünyada baş verən geosiyasi və geoiqtisadi proseslərdə ayrı-ayrı güc mərkəzlərinin öz maraqlarını təmin etmək üçün ən müxtəlif avantüralara əl atdıqlarının şahidi oluruq. Bir, yaxud bir neçə potensial subregional və ya qlobal liderliyə iddialı mərkəz öz məqsədlərinə çatmaq üçün ən müxtəlif vasitələrə əl atır, xalqları, dövlətləri bir-birinə qarşı qoymaqla gücdən salır, xaosa sürükləyir, iqtisadi cəhətdən çökdürməyə çalışırlar. Bu proses olduqca mürəkkəb və çoxşaxəlidir və prosesdə, sadəcə, siyasi mərkəzlər deyil, transmilli enerji, media, silah və maliyyə korporasiyaları daha fəal şəkildə iştirak edirlər. Onlar üçün hansısa dövlətin ərazi bütövlüyünün pozulması, ərazi subyektlərindən birinin qəsb edilməsi, yaxud bu və ya digər dövlətin tamamilə məhv edilməsi önəmli deyil. Onlar üçün önəmli olan öz strateji planlarının həyata keçməsidir. Biz bu prosesin Ukraynada necə həyata keçirildiyinin şahidi olduq. Ukraynanın ərazi bütövlüyünə imzalarıyla təminat verən dövlətlərdən biri bu ölkənin ərazisinin bir hissəsini ilhaq etdi, digər 2 təminatçı dövlət isə sadəcə, boş-boş bəyanat verməklə kifayətləndilər. Çünki onlar üçün önəmli olan Ukraynanın ərazi bütövlüyü deyildi. Onlar iki qohum xalqı qarşı-qarşıya qoymaq, mərkəzi Avropa ilə Rusiya arasında bufer zonası yaratmaq, Rusiyaya qarşı isə sanksiyalar tətbiq etmək üçün bəhanə axtarırdılar. Bu gün qonşuluğumuzda sanksiyalara məruz qalan iki dövlət var - Rusiya və İran. Və şübhəsiz ki, Azərbaycan heç vaxt nə regionda həyata keçirilməsinə cəhd göstərilən oyunlarda, nə də qlobal proseslərdə tərəf olmayıb və olmayacaq. Ölkəmizin və onun liderinin mövqeyi çox açıq və aydındır. Biz öz maraqlarımızı qoruyuruq".

**Azərbaycanın əleyhinə olan qətnamələri ölkəmizin üzv olmadığı və üzv olmağa hazırlaşmadığı strukturların qəbul etməsinə gəldikdə isə E.Mirzəbəyli qeyd etdi ki, burada da məsələ aydındır:** “Söhbət çox güman ki, Avropa Parlamentindən, eləcə də bəzi Qərb dövlətlərinin maliyyələşdirdiyi, himayə və idarə etdiyi təsisatlardan gedir. Şübhəsiz ki, Azərbaycan Avropa İttifaqına üzv olmaq niyyətində deyil ki, Avropa Parlamentində də iştirak etsin. Dövlət başçımız son illər ərzində Azərbaycana qarşı aparılan kampaniyaları ümumiləşdirərək dəyərləndirmə aparıb. Həm də məsələnin digər tərəfi var: Azərbaycanın üzv olmadığı və heç vaxt üzv olmayacağı təsisatların ölkəmizlə bağlı qəbul etdikləri sənədlər birtərəfli qaydada qəbul edilib. Ölkəmizin iştirakçısı olmadığı bir təsisat Azərbaycana qarşı niyə qətnamə qəbul etsin ki? Azərbaycan həmin təşkilatın nizamnaməsini, yaxud prinsiplərini pozmayıb. Poza da bilməz, çünki üzvü deyil”.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Avropa İttifaqı ilə sazişə Avropa Parlamentinin şərtləri mane olur?

## Tərəfdaşlıq sazişi bu il də imzalanmadı

**Azərbaycanla Avropa İttifaqı arasında tərəfdaşlıq saziş bu il də imzalanmadı. Belə şərhlər də var ki, sazişin imzalanmasının yubanmasında Avropa Parlamentinin bu ilin may ayında Avropa İttifaqının rəhbərliyinə Azərbaycanla əməkdaşlıq və tərəfdaşlıq sazişi ilə bağlı verdiyi şərt formasında tövsiyələrin təsiri var. Şərtlər içərisində demokratiya və insan haqları, siyasi məhbuslar məsələsi də var idi və bildirilirdi ki, Azərbaycan bu şərtlərə əməl etməsə, saziş imzalanmamalıdır, imzalansa belə Avropa Parlamenti ratifkasiya etməyəcəyi xəbərdarlığını etmişdi.**



**Politoloq Məhəmməd Əsədullazadə** “Yeni Müsavat”a bildirdi ki, Avropa İttifaqı ilə Azərbaycan arasında sazişin imzalanması üzrə danışıqlar 2016-cı ildən başlayıb. Ötən illər ərzində tərəflər danışıqlar aparmasına baxmayaraq prinsipial məsələlərdə razılıq əldə olunmayıb və sazişin bağlanması yubadılır. Yeni siyasi dialoq və qarşılıqlı faydalı əməkdaşlıq təklif edən hazırkı müzakirə edilən saziş Azərbaycanla Aİ arasında münasibətlərin hüquqi əsası olan 1996-cı ildə imzalanmış Tərəfdaşlıq və Əməkdaşlıq Sazişini (sənəd 1999-cu ildə qüvvəyə minib) əvəzləmək niyyəti güdür: “Saziş, siyasi dialoq, insan hüquqları, ticarət, investisiya, iqtisadi, qanunverici, mədəni və digər əməkdaşlıq sahələrində genişmiqyaslı əməkdaşlığı nəzərdə tutaraq, Azərbaycan qanunvericiliyinin Aİ qanunvericiliyinə uyğunlaşdırılmasını hədəfləyib. Rəsmi Bakının irəli sürdüyü tərəfdaşlıq şərtlərində bir neçə maddələrə yer verilməyib. Bunu da Avropa İttifaqı qəbul etmir. Buna baxmayaraq, tərəflər razılaşmaya, ortaq mövqeyə gəlməyə çox yaxındırlar.

Bu il payıza kimi sazişin bağlanılması gözlənilirdi. Amma növbəti dəfə danışıqlar 2019-cu ilə saxlanıldı. Rəsmi səviyyədə may ayına kimi sazişin bağlanacağı qeyd edilir. Qeyd edim ki, bu çərçivə sazişinin bağlanması Avropa üçün də çətindi. Çünki Ümumdünya Ticarət Təşkilatının üzvü olmayan bir ölkə ilə saziş bağlayır.

Hazırda Azərbaycan Avropa İttifaqı ilə enerji və təhlükəsizlik sahəsində ikitərəfli sazişin bağlanılmasında maraqlıdır. Təkliflərini də bu istiqamətdə verib. Amma Avropa İttifaqı siyasi, hüquqi və demokratik prinsipləri özündə ehtiva edən sazişdə maraqlıdır. Razılaşdırılmayan məqanmlardan biri də budur. Bundan əlavə, yeni saziş Azərbaycan məhsullarının Avropa İttifaqı bazarlarına çıxışının yaxşılaşması məqsədilə Azərbaycan qanunvericiliyinin və prosedurlarının Aİ-nin ən mühüm beynəlxalq ticarət norma və standartlarına uyğunlaşdırılmasını nəzərdə tutur. Azərbaycan bu sahə də Avropa standartlarını tətbiq etməlidir.

Sazişin imzalanmasının yubadılması Avropa İttifaqının irəli sürdüyü qeyd olunan bir neçə müddəanın rəsmi Bakını razı salmamasıdır. Avropa Parlamentinin məlum tövsiyələrində də demokratiya, insan haqları kimi məsələlər əksini tapırdı“.

**Politoloq vurğuladı ki, sazişin imzalanmasına Avropa Parlamentinin mane olduğu fikri yanlışdır. Saziş imzalanmasa da Azərbaycan Avropa İttifaqının enerji diversifikasiyasında əhəmiyyətli ölkədir:** “Enerji və təhlükəsizlik tərəfdaşıdır. Həmçinin ölkəmizin ən böyük ticari tərəfdaşı Avropa İttifaqıdır. Bir məsələni qeyd edim ki, Azərbaycan Cənub Qaz Dəhlizi və onun seqmentləri olan TANAP və TAP layihələri Avropanın enerji asılılığının azalmasına hesablanıb. Bu onu göstərir ki, İttifaqla Azərbaycan arasında bir neçə sahə üzrə sıx əməkdaşlıq var. Hesab edirəm ki, tərəflər maksimum iradə nümayiş etdirib gələn il hərtərəfli çərçivə sazişini imazalayacaqlar. Azərbaycan üçün bu saziş dəyişən beynəlxalq şərtlər müstəvisində xüsusi önəm daşıyır. Rəsmi Bakı Avropa İttifaqının irəli sürdüyü təkliflərlə sazişi bağlasa, bu, ölkəmiz və xalqımız üçün müstəsna hadisə olacaq”.

**Qeyd edək ki, Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Yankauskas iki həftə öncə bildirib ki, Avropa İttifaqı Azərbaycanla yeni sazişin mətnini gələn ilin “Şərq Tərəfdaşlığı proqramı”nın 10 illiyi qeyd ediləcəyi may ayınadək razılaşdırmağı düşünür:** “Belə demək olar ki, sənədin mətnini “Şərq Tərəfdaşlığı”nın 10 illiyi tədbirlərinədək razılaşdırmağa ümidvarıq ki, bəlkə gələn ilin ortalarında təsdiqlədə bilərik”.

Azərbaycan xarici işlər nazirinin müavini Mahmud Məmməd-Quliyev isə deyib ki, Azərbaycan, Avropa İttifaqı arasında tərəfdaşlıq sazişi mart ayınadək imzalana bilər. Nazir müavini bildirib ki, sazişin hazırlanıb paraflanması Azərbaycan üçün əsasdır. Məsələnin gecikməsinin səbəbi Avropa İttifaqında islahatların aparılmasıdır.

Bu ilin mayında isə Avropa Parlamentinin deputatları Avropa İttifaqının rəhbərliyinə Azərbaycanla əməkdaşlıq və tərəfdaşlıq sazişi ilə bağlı tövsiyələr verib. Tövsiyələrdə deputatlar Avropa İttifaqını Avropa İttifaqı və Azərbaycan arasında münasibətlərin dərinləşməsinin demokratiyaya, qanunun aliliyinə, yaxşı idarəçiliyə, insan hüquq və əsas azadlıqlara riayət və hörmətlə şərtlənməsini təmin etməyə və plüralist kütləvi informasiya vasitələrinin gələcək inkişafına şərait yaratmağa çağırıblar.

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

## Gədəbəydə idman müəllimi özünü qumbara ilə partlatdı



**Gədəbəydə dəhşətli hadisə baş verib. Hadisə rayon mərkəzində qeydə alınıb. Sakinlər şəhər ərazisində güclü partlayış səsi eşidiblər. Dərhal hadisə yerinə təcili tibbi yardım, polis və prokurorluq əməkdaşları cəlb edilib. Hadisə yerindən bir nəfər yaralı dərhal xəstəxanaya aparılıb. Həkimlərin səyinə baxmayaraq onu xilas etmək mümkün olmayıb.**

Araşdırmalar zamanı dünyasını dəyişən şəxsin rayon sakini, 1974-cü il təvəllüdlü Nemət İlyas oğlu Bayramov olması müəyyən edilib. O, "F-1" əl qumbarasını əlində partladaraq intihar edib.

Faktla bağlı Gədəbəy Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 125-ci (özünü öldürmə həddinə çatdırma) maddəsi ilə cinayət işi başlanıb, istintaq gedir. Onu da qeyd edək ki, intihar edən N. Bayramov peşə liseyində idman müəllimi olub.

Liseyin direktoru Şakir Məsumovun unikal.org-a verdiyi məlumata görə, onun hansı səbəbdən bu addımı atması bilinmir: "Mərhum ailəli olub, bir qız övladı var idi. Onun qızı iki dəfə əməliyyat olunmuşdu. Həyat yoldaşının da əməliyyat olunacağı bildirilir. Deyilənə görə, sosial problemləri var imiş. Özləri rayonun mərkəzində yaşayırlar. Evə gələrkən yolda özünü partladıb. Mərhum hələ dəfn olunmayıb. Cənazəsini yaşadığı mənzilə gətiriblər".

## Axtarışda olan 14 nəfər tutuldu

**Dekabrın 26-da daxili işlər orqanlarında qeydə alınan cinayət və hadisələr haqqında statistik məlumatlar açıqlanıb. DİN-in mətbuat xidmətindən verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən gün ərzində 115 cinayət faktı qeydə alınıb, onların da 20-si "isti izlər"lə açılıb.**

Əvvəlki dövrlərdən bağlı qalmış 28 cinayətin açılması təmin olunub.

Axtarışda olduğuna görə ümumilikdə 30 nəfər, o cümlədən mülki-hüquqi öhdəliklərin icrasından yayındığına görə 2 nəfər, borclu şəxs qismində axtarışda olan 14 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında 1 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 2 nəfər xəsarət alıb.

Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 4 fakt müəyyən edilib.

Cinayət törətməkdə şübhəli bilinən 22 nəfər saxlanılıb.




## Polis bayramda gücləndirilmiş iş rejimində çalışacaq

**Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar 2018-ci il dekabrın 29-dan 2019-cu il yanvarın 3-dək respublika daxili işlər orqanlarının şəxsi heyəti gücləndirilmiş iş rejimində işləyəcək.**

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən verilən məlumata görə, bununla bağlı daxili işlər naziri, general-polkovnik Ramil Usubov müvafiq əmr imzalayıb.

Əmrə əsasən, 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ilə əlaqədar nazirliyin bütün orqan və hissələrinin şəxsi heyəti ictimai asayişin və təhlükəsizliyin daha da nümunəvi və etibarlı qorunmasının təmin edilməsi üçün bayram ərəfəsində və bayram günləri öz xidməti fəaliyyətlərini gücləndirilmiş iş rejimində həyata keçirəcək. Kütləvi tədbirlərin, o cümlədən bayram şənliklərinin təşkil olunduğu, insanların gur toplaşdığı yerlərdə polis naryadlarının sayı artırılacaq. Respublika ərazisində, o cümlədən avtomobil yollarında ictimai qaydanın, hərəkətin təhlükəsizliyinin təmin edilməsi məqsədilə bütün qüvvə və imkanlar səfərbər ediləcək. Bayram ərəfəsi və bayram günlərində həyat təminatlı mühüm əhəmiyyətli obyektlərin, o cümlədən xarici ölkələrin diplomatik nümayəndəliklərinin mühafizəsi də ciddi nəzarətdə saxlanacaq.

# "Donuz qripi" xəstəliyi: fırıldaq, yoxsa həqiqi təhlükə?

## Səhiyyə Nazirliyi virusa yoluxmanın qarşısını almaq üçün lazımi tədbirlər həyata keçirir

**"Donuz qripi" kimi adlanan A ( H1N1) virusu yenidən yayılıb. Məlumatlara görə, qonşu Gürcüstanda artıq iki nəfər bu virus nəticəsində həyatını itirib.**




Öncə yada salaq ki, ötən illərdə də bu virusun dünyada yayılması ilə bağlı informasiyalar dolaşırdı. 2009-cu ildə məlumat yayılmışdı ki, dünyada "donuz qripi"nə yoluxanların sayı 6 min nəfərdən yuxarıdır. Məlumatlar arasında o da bildirilirdi ki, əslində bu virus müxtəlif "siyasi qüvvələr" tərəfindən yaradılıb və dünyada insanların sayının azaldılmasına xidmət edir. Eyni zamanda virusun əslində bir fırıldaq olduğunu deyənlər də var. Bu fikrin müəllifləri hesab edirlər ki, dünyada müxtəlif növ qriplərdən hər il insan ölümləri baş verir. Bu ölümlər isə sadəcə olaraq, həmin insanların orqanizmlərindəki digər çatışmazlıqlarla bağlıdır...

Lakin bütün bunlarla yanaşı, bu da faktdır ki, Dünya Səhiyyə Nazirliyi 2009-cu ildə bu virusla bağlı SOS təbili çalıb. Belə ki, həmin ilin aprel ayında Meksikanın La-Qloriya kəndində beş yaşlı Edqar Ernandes adlı uşaq ağır qripə yoluxub. Ailəsi bunun adi qrip olduğunu güman etsə də az keçmədən Edqar dünyasını dəyişib. Təşvişə düşən həkimlər araşdırma apararaq, bunun adi virus olmadığını müəyyən ediblər. Az keçmədən virus dünyanın bir neçə ölkəsinə yayıldı ki, onlar arasında qardaş Türkiyə də vardı. Həmin vaxtdan dünyanın 135 ölkəsində 134 mindən çox adam bu qripə tutulub ki, onların da 700 nəfərdən çoxu dünyasını dəyişib. Xəstələrin sayı ABŞ, Meksika, Kanada, Böyük Britaniya, Çili və Avstraliyada daha çoxdur.

Bəzi mənbələr isə virusun tarixini daha qədimə bağlayırlar. Belə ki, xarici mənbələrdə göstərilir ki, A ( H1N1) virusu ilk dəfə 1918-ci ilin aprelində İspaniyada meydana çıxıb. Həmin zaman virusa "ispan qripi" adı verilib və 10 ilə qədər bu virus qeyd etdiyimiz ölkədə canlar alıb.

"Donuz qripi"nin əsas əlamətləri bunlardır: 39 dərəcədən yüksək olan hərarət, boğazda ağrı və öskürək, zökəm, baş və əzələ ağrıları, bəzən də qusma və ishal.

Həkimlər hesab edirlər ki, əslində A ( H1N1) virusunun əlamətləri adi qripdə olduğu kimidir. Bunu yalnız 39 dərəcədən yuxarı olan hərarətlə ayırd etmək olur. Tövsiyə olunur ki, qripə yoluxma zamanı hərarət yüksələn zaman onu aspirinlə endirməyə çalışmaq lazım deyil. Çünki aspirin "donuz qripi"nin inkişafına yardım edir.

Qeyd olunur ki, xəstəliyə tutulan şəxs 7 gün ərzində yoluxdurucudur. 7 gündən sonra infeksiyanın yayılma riski azalır, amma azyaşlı uşaqlarda virus həmişə aktiv olur, xəstəlik uzun müddət yoluxdurucu qala bilir.

Bu virusa tutulan şəxsin nə etməli olduğu barəsində də xarici mənbələrdə çoxsaylı məlumatlar yer alıb. İlk olaraq bildirilir ki, A ( H1N1) virusuna yoluxan şəxs evdə yatmamalı, dərhal xəstəxanaya yerləşdirilməlidir. Çoxlu miqdarda maye qəbul etməli, xəstəyə və evdə olan digər şəxslərə maska taxılmalıdır. Xəstə şəxslə təmas zamanı gigiyenik qaydalara mütləq riayət edilməlidir. Ev şəraitində xəstəyə qulluq etmək üçün onu ayrıca otağa salmaq və ona qulluq zamanı birdəfəlik maskalardan istifadə etmək lazımdır. Maska 4 saatdan bir yenisi ilə əvəz edilməlidir. Xəstənin olduğu otağı təmiz saxlamaq, nəm əski ilə təmizləmək vacibdir.

"Donuz qrip"i zamanı insan zəifləyir, immun sistemi sıfıra düşür, ağciyərlərin iltihabı, pnevmaniya ağırlaşmaları olur. Ürəkləri zəif olan insanlarda ürəyin fəaliyyəti dayanır. Xəstənin virusa yoluxmasını yalnız laboratoriyada müəyyən etmək olur".

Yuxarıda da qeyd etdiyimiz kimi, Azərbaycanla sərhəd qonşusu olan Gürcüstanda artıq bu virusdan 2 nəfərin olduğu bildirilir. Bəs ölkəmizə təhlükə varmı?




Səhiyyə Nazirliyindən "Yeni Müsavat"a bildirilib ki, sözügedən virusa yoluxmanın qarşısını almaq üçün lazımi tədbirlər həyata keçirilir. Məlumatda qeyd edilib ki, Respublika Sanitariya-Karantin Müfəttişliyi tərəfindən sərhəd-keçid məntəqələrində - vağzallarda, "Azərbaycan Hava Yolları"nda (AZAL) ölkəyə daxil olan fiziki şəxslər üzərində tibbi müayinə aparılır, o cümlədən məsafədən insan bədəninin hərarətini ölçən "Termovizor" aparatı vasitəsilə nəzarət edilir.

Dövlət Gömrük Komitəsi də A (H1N1) virusu və digər yoluxucu xəstəliklərlə bağlı açıqlama yayıb.

**Açıqlamada deyilir ki, əhalinin sağlamlığının qorunması, insanlar üçün qlobal təhlükə törədən qrip, xüsusilə "donuz qripi" kimi tanınan A (H1N1) virusu və digər yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması məqsədilə də sərhəd gömrük-buraxılış məntəqələrində gömrük orqanları tərəfindən müvafiq iş aparılır:** "Bununla əlaqədar, öskürək, halsızlıq, yüksək hərarət, yuxarı tənəffüs yollarının katarı, əzələ və oynaq ağrıları və s. simtomplarla özünü büruzə verən, xəstəliyi hava-damcı yolu ilə sağlam insanlara keçirə bilən fiziki şəxslərin müəyyənləşdirilməsi üçün məsafədən insan bədəninin hərarətinin ölçülməsində istifadə olunan cihazlar (termovizorlar) vasitəsilə termometriya, tibbi sorğu, vizual müayinə və digər üsullarla tibbi-sanitariya yoxlaması həyata keçirilir.

Xəstə və xəstəliyə şübhəli şəxslər aşkar edilərsə, onların müvəqqəti təcrid olunması üçün lazımi şərait yaradılıb və zəruri əşyalarla təchiz olunmuş yerlər müəyyən edilib.

Həmçinin xüsusi qoruyucu geyimlərdən istifadə etməklə nəqliyyat vasitələri üzərində dezinfeksiya tədbirləri də həyata keçirilir. Eyni zamanda fiziki şəxslərin hava nəqliyyatı vasitəsilə ölkəyə gəlişi zamanı, Mülki Aviasiya Təşkilatı tərəfindən qəbul edilmiş və ekipajın müvafiq üzvləri tərəfindən imzalanmış hava gəmisinin "baş bəyannaməsi" sənədinin tibbi-sanitariya hissəsinə uyğun olaraq, müvafiq tibbi-sanitariya nəzarəti məsələlərinə dair məlumatların gömrük orqanına təqdim olunması tələb edilir".

**Əli RAİS,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 280 (7169) 28 dekabr 2018

**Yola salmaqda olduğumuz 2018-ci il planetimiz üçün bir sıra mühüm hadisələrlə yadda qaldı. Bu hadisələrin bir neçəsi əhəmiyyətinə və təsirinə görə tarixə düşəcək. 2018-ci ilin ən mühüm, qlobal əhəmiyyətə malik əsas hadisələrini toplamağa çalışdıq.**

# 2018-ci ilin hadisələri: Qaşıqçının qətli, Sərkisyanın istefası, Ərdoğanın...











### Qanında boğulan Qaşıqçı

İlin ən dəhşətli hadisəsi heç şübhəsiz ki, Səudiyyə Ərəbistanından olan jurnalist Camal Qaşıqçının qətli, daha dəqiqi, yoxa çıxması idi. Çünki "Vaşinqton Post"un yazarı Qaşıqçının cəsədi hələ də tapılmayıb.

Jurnalist Camal Qaşıqçı 2018-ci il oktyabrın 2-də gündüz saatlarında evliliklə bağlı sənədi imzalamaq üçün Səudiyyə Ərəbistanının İstanbuldakı Konsulluğunun binasına daxil olub. Ancaq Qaşıqçı binadan çıxmayıb. Səudiyyə Ərəbistanının İstanbul konsulluğu israrla Qaşıqçının konsulluq binasını tərk etdiyini bildirib. Hətta konsul Məhəmməd əl-Utaibi yerli jurnalistlərə konsulluq binasını göstərib və Qaşıqçının orada olmadığını deyib.

Ancaq sonrakı günlərdə artan təzyiqlərdən sonra oktyabrın 20-də Səudiyyə Ərəbistanı hökuməti rəsmi açıqlama yayaraq Qaşıqçının oktyabrın 2-də konsulluq binasında öldürüldüyünü etiraf edib. Eyni zamanda hadisədə məsuliyyət daşıyan 18 nəfərin saxlanıldığını bəyan edib. Bu hadisə daha sonra ABŞ Senatının Səudiyyə Ərəbistanı hakimiyyətini ittiham edən qanun qəbul etməsinə, o cümlədən 17 nəfər krallıq vətəndaşına sanksiya tətbiq etməsinə səbəb olub. Bundan başqa, bir sıra Qərb ölkələri və şirkətləri Səudiyyə Ərəbistanında keçirilən investisiya forumunu boykot edib, bəziləri isə əməkdaşlığı dayandırıb.

Bəzi iddialara görə, Qaşıqçı konsulluqda öldürüldükdən sonra cəsədi doğranıb və daha sonra kimyəvi maddədə əridilib.

### "Skripal işi"

İlin ikinci səs-küylü hadisəsi Skripal hadisəsi olub. Rusiya Baş Kəşfiyyat İdarəsinin sabiq zabiti Sergey Skripalın Britaniyada zəhərlənməsi iki ölkə arasında gərginliyə səbəb olub. Xatırladaq ki, Rusiya Müdafiə Nazirliyi Baş Kəşfiyyat İdarəsinin (QRU) sabiq polkovniki Sergey Skripal və qızı Yuliya 2018-ci il martın 4-də Böyük Britaniyanın Solsberi şəhərində huşsuz vəziyyətdə tapılıblar. Britaniyanın baş naziri Tereza Mey martın 12-də verdiyi açıqlamada Skripal və qızının SSRİ-də istehsal edilmiş "Noviçok" adlı kimyəvi silahla zəhərləndiklərini bildirib. O, hadisəyə görə məsuliyyəti Rusiyanın boynuna qoyaraq bunu Böyük Britaniyaya qarşı akt kimi qiymətləndirib.

Martın 14-də Britaniya hökuməti Rusiyaya qarşı sanksiyalar qəbul edib, həmçinin Rusiya ilə rəsmi səviyyədə təmasları dayandırıb və Britaniyada fəaliyyət göstərən 23 Rusiya kəşfiyyatçısını ölkədən çıxarıb. Ruslar da buna cavab olaraq Britaniya diplomatik korpusunun çətiri altında fəaliyyət göstərən kəşfiyyatçıları ölkədən çıxarıblar.

Qeyd edək ki, Sergey Skripal 2006-cı ildə dövlətə xəyanət ittihamı ilə mühakimə olunaraq 13 il həbsə məhkum edilib. 2010-cu ildə onu və daha bir neçə casusu Rusiya kəşfiyyatının ABŞ-da ifşa edilmiş bir qrup agenti, o cümlədən Anna Çapmanla mübadilə ediblər. Həbsxanadan buraxılan QRU polkovniki Böyük Britaniyadan sığınacaq alıb.

### Rusiya yenə "Putin" dedi

İlin iki mühüm seçkisi Rusiya və Türkiyədə olub. Martın 18-də keçirilən prezident seçkilərində Vladimir Putin 4-cü dəfə Rusiyanın prezidenti seçilib. Mərkəzi Seçki Komissiyası bəyan edib ki, Putin səslərin 76 faizindən çoxunu qazanıb. Rusiya MSK-nın məlumatına əsasən, Putin rekord sayda - 54,4 milyon vətəndaşın səsini qazanıb. Qeyd edək ki, Putin 2000-ci ildən Rusiyaya rəhbərlik edib. 2008-ci ildə iki müddəti bitdikdən sonra hazırkı baş nazir Medvedyev 4 il müddətinə Rusiyaya rəhbərlik edib. Daha sonra qanun dəyişib və Rusiyada prezidentlik müddəti 6 il müəyyən olunub, iki dəfə seçilməklə. 2012-ci ildə isə Putin yenidən Rusiya prezidenti seçilib. Beləliklə, Rusiyanın hazırkı lideri sonuncu prezidentlik müddətinə də seçilib.

### Ərdoğanın seçkisi...

2018-ci ildə daha bir mühüm əhəmiyyətli seçki yenə də Azərbaycanın qonşuluğunda baş verib. Türkiyədə ilk dəfə olaraq yeni konstitusiyadan sonra prezident seçilib. 2017-ci ilin aprelində keçirilən referendum nəticəsində Türkiyədə dövlət sistemi dəyişib, ölkə prezident üsul-idarəsinə keçib. Prezident seçkisinin qanunla müəyyən olunmuş vaxtı 2019-cu il olsa da, MHP sədrinin təklifi ilə hökumət növbədənkənar seçkilər elan edib və prezidentlə parlament seçkiləri eyni gündə keçirilib. Seçkilərin nəticələrinə əsasən, Türkiyədə 2002-ci ildən iqtidarda olan AKP sədri Rəcəb Tayyib Ərdoğan yeni konstitusiya dövründə ölkənin ilk prezidenti seçilib. Ərdoğan seçicilərin 52 faizindən çoxunun, ya da başqa sözlə, 26 milyon seçicinin səsini alıb.

Parlament seçkilərində də Ərdoğan qalib gəlib. Belə ki, AKP və MHP-nin təşkil etdiyi "Cumhur İttifaqı" koalisiyası səslərin böyük bir hissəsini – 57 faiz və ya 344 mandat qazanıb. CHP və İYİ Partiyanın "Millət İttifaqı" isə 34 faizə yaxın və ya 189 mandat alaraq ikinci olub. Ərdoğanın növbəti dəfə Türkiyə prezidenti seçilməsi bu ölkənin 2002-ci ildən davam edən siyasi kursun xalq tərəfindən dəstəkləndiyini təsdiq etmiş olub.

### Koreya prezidentlərinin görüşü

İlin ən mühüm pozitiv siyasi hadisəsi iki Koreya arasında münasibətlərin istiləşməsi və prezidentlərin görüşü olub. Aprelin 27-də Şimali Koreya prezidenti Kim Çen In və Cənubi Koreyanın prezidenti Mun Jae iki ölkə sərhədində yerləşən Panmunjom Atəşkəs Kəndində görüşüblər.

Bu hadisə Koreya yarımadasının iki hissə bölünməsi ilə nəticələnən 1950-53-cü illərdə davam edən müharibədən sonra ilk belə hadisə olub. İki lider birlikdə sərhədin şimal tərəfinə keçdikdən sonra yenidən cənuba dönüblər.

Cənubi Koreya orqanlarından verilən məlumata görə, görüşdə, Koreya yarımadasının yenidən birləşməsi, iki Koreya münasibətlərinin yaxşılaşdırılması və nüvədən təmizlənməsi məsələləri müzakirə olunub. Qeyd edək ki, bundan bir neçə ay sonra iki ölkə lideri növbəti dəfə görüşüb. İyunda isə Sinqapurda ABŞ və Şimali Koreya lideri arasında görüş baş tutub. Məhz bu görüşdən sonra Şimali Koreya əsas nüvə silahı sınaq mərkəzini ləğv edib. Ancaq ilin sonunda münasibətlərdə soyuqluq yaranıb. Çünki Şimali Koreya ABŞ-ı vəd etdiyi sanksiyaları ləğv etməməkdə ittiham edir. Ancaq gələn ilin yanvarın sonunda ABŞ və Şimali Koreya liderləri arasında növbəti görüş keçiriləcək. Ümid edək ki, liderlər anlaşmazlığı aradan qaldıracaqlar.

### Erməni inqilabı

İlin daha bir səs-küylü hadisəsi yenə qonşumuzda baş verdi. Ermənistanda qansız inqilab nəticəsində Serj Sərkisyanın və ümumilikdə Qarabağ klanının hakimiyyətinə son qoyuldu. İqtidara isə 42 yaşlı jurnalist, meydan aktivisti Nikol Paşinyan gəldi.

42 yaşlı Nikol Paşinyan "Mənim addımım" hərəkatını ilk dəfə Gümrüdə martın 31-də başladıb. Daha sonra aksiyaçılar İrəvana yürüş edib və aprelin 13-də etirazçılar paytaxt İrəvana çatanda sayları minlərlə olub. Aprelin 17-də parlament səlahiyyət müddəti başa çatmaqda olan prezident Sərkisyanı baş nazir seçir, 22 apreldə isə Sərkisyan Paşinyanı danışıqlara dəvət edir. Ancaq danışıqlar baş tutmur və Nikol Paşinyan həbs olunur. Bir gün sonra Paşinyan azad edilir və Serj Sarkisyan vəzifəsindən istefa verir. Bundan az sonra isə Paşinyan partiyaların dəstəyi ilə baş nazir seçilir. Payızda isə növbədənkənar parlament seçkiləri elan olunur və dekabrın 9-da keçirilən seçkilərdə Paşinyanın bloku parlament seçkilərində səslərin 70 faizini qazanaraq hakimiyyətini möhkəmləndirir.

### "Sarı jiletlilər"

İlin sonuncu ən səs-küylü hadisəsi isə Fransa mitinqləri, ya da başqa adla "sarı jiletlilərin" aksiyaları oldu. Noyabrın 17-də başlayan "Sarı jiletlərin" hərəkətləri son illər ərzində ölkədə baş verən ən geniş etiraz aksiyalarıdır. Etirazların əsas səbəbi isə noyabr ayının ortalarında hökumətin yanacağın qiymətlərini qaldıracağını elan etməsi olub.

Hökumət elan edib ki, Fransada yanvarın 1-dən benzinin qiyməti 2,9 avrosent, dizelin qiyməti isə 6,5 avrosent artacaq.

Fransada yol qəzalarından qorunmaq üçün avtomobil sahibləri üçün məcburi olan sarı jiletləri geyinən əhali hökumət əleyhinə aksiyalara sarı jiletləri geyməklə etiraz edib. Təzyiqlərlə üzləşən hökumət yanvarın 1-dən (2019) etibarən qüvvəyə mindirəcəyi yeni yanacaq vergisinin tətbiqini yarım il müddətinə ertələyib. Ancaq bu, etirazların yatmasına səbəb olmayıb.

Aksiyalarda bu vaxta qədər 8 nəfər ölüb, 4341 nəfər isə saxlanılıb. Ümumilikdə isə Parisdə 280 ticarət və digər obyektə 2 milyard avro dəyərində ziyan dəyib. Bir çox müşahidəçilər bu aksiyaların sadəcə yanacaq qiymətləri səbəbindən baş vermədiyini, eyni zamanda prezident Makronun Avropa Birliyinin gücləndirilməsi, Avropa Ordusu yaradılması təkliflərinə görə cəzalandırılması kimi izah edir.

❑ **Kənan RÖVŞƏNOĞLU, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 280 (7169) 28 dekabr 2018

# Avropa Birliyi və Rusiya “odda yanmaz, suda batmaz” dollara qarşı

## Ekspert: “Yaxın dövrdə dolların mövqeyinə ciddi təhlükə gözlənilən deyil”

**Son aylarda dünya mətbuatında Avropa Birliyi ilə Rusiya arasında yaxınlaşmaların olmasına dair materiallar artmaqdadır. Bu materialların əksəriyyətində ABŞ prezidenti Donald Trampın yürütdüyü xarici siyasətin Avropa Birliyinin bir çox iqtisadi məsələlərdə Rusiya ilə mövqe yaxınlaşmasına getməsinə səbəb olacağı bildirilir. Hətta bir müddət öncə Macarıstanın xarici işlər naziri Peter Sayyarto ictimai çıxışlarının birində “Avropa İttifaqı Rusiya ilə sıx münasibəti dəstəkləyir, ancaq bunu gizlədir” fikrini səsləndirib.**

Qeyd edək ki, Trampın Avropaya qarşı iqtisadi siyasəti Birlik daxilində ciddi narazılıqlara səbəb olmaqdadır. Bu narazılıqlar fonunda Rusiyanın Avropaya qarşılıqlı ticarətdə dollardan avroya keçmək təklifləri son vaxtlar xeyli müsbət reaksiyalar doğurmaqdadır. Təsadüfi deyil ki, iki həftə öncə Avropa İttifaqı Komissiyasının sədr müavini Valdis Dombrovskis qlobal ticarətdə avronun rolunu möhkəmləndirmək və maliyyə sistemi daxilində müxtəlifliyi artırmaq istədiklərini bildirib. O, beynəlxalq bazar iştirakçılarının bütün məhsullarda ticarət əməliyyatlarını avro ilə həyata keçirmələrini istəyib: “Avro beynəlxalq bazarlarda energetika, xam maddə, kənd təsərrüfatı məhsulları, təyyarə istehsalı kimi bəzi strateji sahələrdə daha mühüm rol oynaya bilər”.

Dombrovskis avronun daha güclü alternativ olması üçün Avropada iqtisadi və maddi birliyi gücləndirməyin, bank və sərmayə bazarları birliyini başa çatdırmağın vacib olduğunu vurğulayıb. Bu günlərdə isə Rusiyanın iqtisadi inkişaf naziri Maksim Oreşkin RT telekanalına eksklüziv müsahibəsində deyib ki, Avropa Birliyi və Rusiya üçün dollar yad elementdir. Hər iki tərəf üçün ticarəti dollar müstəvisindən avro müstəvisinə keçirmək daha xeyirli olardı.

Rusiya iqtisadiyyatına görə sorumlu olan bu şəxs açıqlamasında bildirib ki, hazırda Avropa Birliyi ilə Rusiya arasında iqtisadi əlaqələr baxımından intibah dövrü yaşanır. Nazir açıq şəkildə bəyan edib ki, Rusiya avronun beynəlxalq arenada, xüsusən enerji sahəsində mövqeyinin möhkəmlənməsində maraqlıdır və buna dəstək verir.

Rusiyanın maliyyə naziri Siluanov isə bildirib ki, böyük şirkətlər dollardan imtina ilə bağlı planlar hazırlayıblar. Onun sözlərinə görə, keçid tədricən baş verəcək və şirkətlər ziyana düşməyəcəklər.

Xatırladaq ki, dünyanın karat baxımından ən böyük almaz istehsalçısı Rusiyanın “Alrosa” şirkəti yayda çinli müştəri ilə yuan, hindistanlı müştəri ilə isə dollar olmayan fərqli vlayuta üzərindən razılıq əldə etdiyini bildirib. “Surqutnefteqaz” enerji şirkəti, “Rusaqro” kənd təsərrüfatı şirkəti və “Norilsk Nikel” mədənçisi də bənzər tranzaksiyalar üzərində işləyir.

**İqtisadçı-ekspert, İqtisadi və Sosial İnkişaf Mərkəzinin rəhbəri Vüqar Bayramov Avropa Birliyinin Rusiya ilə dollara qarşı birləşməsini real saymır:** “Rusiya bir neçə ildir müxtəlif ölkələrlə qarşılıqlı ticarətdə dollardan imtinaya çalışır. Rusiya enerji ölkəsidir, öz enerji məhsullarını Avropaya avro ilə satmaq hədəfi var. Bu hədəfin reallaşmasında Rusiya ilə Avropanın müəyyən ortaq fikirləri ola bilər. Amma uzun müddətdir ki, müxtəlif ölkələr dolların dünya bazarında hökmranlığına qarşı addımlar atmağa çalışırlar. Bu gün hətta SWIFT-ə alternativ tapılması ilə əlaqədar Almaniya və Avropada müzakirələr aparılır. Almaniya kansleri belə bu müzakirələrə toxunub, iştirakçıları ehtiyatlı olmağa səsləyib. Yəni alternativlərin tapılması heç də asan məsələ deyil. Xüsusilə dollar kimi dünya tədavül vasitəsi olan valyutaya qarşı. Bu gün dünya yığımlarının 62 faizi dollarla, cəmi 25 faizi avro ilədir. Bu şəraitdə avro dollara hələ ki rəqib ola bilməz”.



**Ekspert hesab edir ki, hətta Avropa Birliyi ilə Rusiya dollara qarşı fəaliyyətləri uzlaşdırmağa başlasalar belə, yaxın dövrdə məqsədlərinə nail olmaları mümkün deyil:** “Yaxın dövrdə dollarla bağlı ciddi təhlükələrin yaranacağı gözlənilən deyil. Bunun bir səbəbi də onun arxasında dayanan ABŞ iqtisadiyyatının getdikcə daha da güclənməsidir. Digər tərəfdən, Beynəlxalq Enerji Akademiyasının hesablamalarına görə, 2025-ci ildə ABŞ Rusiya və Səudiyyə Ərəbistanının birgə hasilatı qədər neft istehsal etmək gücündə olacaq. Bu isə ABŞ-ın dünya enerji bazarına təsir edən dominant ölkə olacağı deməkdir. Bu da dolların dünya səviyyəsində möhkəmlənməsi üçün daha bir əlverişli zəmin deməkdir”.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

# Xəzərin dibi ilə bağlı problemlər 2019-a qaldı

## Politoloq: “İmzalanan konvensiya ilə də demək olar ki, Xəzərdə problemlərin yerdəyişməsi baş verdi”

**Başa çatmaqda olan 2018-ci ildə 22 ildir müzakirəsi aparılan Xəzərin statusu ilə bağlı müəyyən məsələ öz həllini tapdı. Belə ki, avqustun 12-də Qazaxıstanın Aktau şəhərində Xəzərin statusu ilə bağlı yekun konvensiya imzalandı. Konvensiyanı 5 Xəzər sahili ölkənin - Azərbaycanın, Rusiyanın, Qazaxıstanın, Türkmənistanın və İranın prezidentləri imzaladılar. Nəticədə Aktauda Xəzərin statusu müəyyənləşdi.**

Konvensiyanı “Xəzərin Konstitusiyası” kimi də qiymətləndirmək olar. İmzalanan konvensiyaya görə, Xəzər nə dənizdir, nə də göl. Bu, dünya dəniz tarixində yenilik sayılır. Xəzəri dəniz adlandırmaq ona görə mümkün deyil ki, okeanlara çıxışı yoxdur. Eyni zamanda su tutumu və coğrafi baxımdan Xəzər göl də deyil.

Qəbul olundu ki, Xəzər akvatoriyası daxili sular, ərazi suları, balıqçılıq zonaları və ümumi məkandan ibarət olacaq. Ərazi sularında 15 dəniz milindən çox olmamaq şərti ilə, sahil dövlətləri milli suverenliyə malik olacaq. Bundan başqa, 10 mil hüdudunda balıqçılıq zonalarında sahilyanı dövlətlər öz hüdudları daxilində müstəsna hüquqlar əldə edirlər.

Dəniz məkanının qalan hissəsi ümumi şəkildə istifadəyə verilir.

Konvensiya dənizin dibindən boru kəmərlərinin keçməsinin də qarşısını almır. Azərbaycan və Türkmənistan üçün bu məsələ həm də Transxəzər qaz kəmərinin çəkilməsi baxımından maraqlı olub. Sənəddə aydın şəkildə yazılıb ki, hər bir ölkə kəmərin keçdiyi dövlətin razılığını almaqla istənilən boru xəttini çəkə bilər. Yəni burada hansısa ümumi razılıqdan söhbət getmir. Lakin Xəzərdəki layihələrin ətraf mühitə təsiri ilə bağlı imzalanacaq protokol Rusiya və İrana gələcəkdə bu tip layihələri bloklamağa əlavə vasitə verə bilər.

Konvensiyanın önəmli bəndlərindən biri də burada bölgə xarici dövlətlərin Xəzərə çıxışının əldə etməsinin qarşısının alınmasından ibarədir. Konvensiyada Xəzər dənizində 3-cü ölkələrin (yəni qeyri-Xəzəryanı dövlətlərin) silahlı qüvvələrinin iştirak etməsinin yolverilməzliyi barədə müddəa var. Buna görə “Xəzəryanı dövlətlər öz ərazilərini razılığa gələn dövlətlərin əleyhinə hərəkət edən və digər hərbi fəaliyyət üçün heç bir başqa dövlətin ixtiyarına verməyəcəklər.




**Bəs bu il Xəzərin bölünməmiş nəyi qaldı?**

**“Yeni Müsavat”a danışan politoloq Mübariz Əhmədoğlu söyləyib ki, əslində hazırda Xəzərin bölünməyən çox məsələsi qalıb:** “Məsələ burasındadır ki, imzalanan konvensiya ilə də demək olar ki, Xəzər bölünməyib. Sadəcə olaraq, Xəzərdə problemlərin yerdəyişməsi baş verdi. Uzun müddət hər kəs elə başa düşürdü ki, Xəzərdə əsas gərginlik mənbəyi Azərbaycan ətrafındadır. Yəni Türkmənistanın, Rusiyanın və İranın məsələ ilə bağlı narazılıqları vardı. Bu isə fərqli bir görkəm yaradırdı. Narazılıqlar Azərbaycanla bağlı idi. Çünki bizim ölkəmiz Xəzərin pioneri idi. Qərb şirkətlərini ilk olaraq Xəzər regionuna gətirən Azərbaycan oldu. Bu baxımdan da hər kəs elə başa düşürdü ki, Azərbaycan üçün Xəzər gərginlik mənbəyidir. Əsasən bu xüsusda Ermənistanın böyük hesablamaları vardı. Ermənilər tez-tez yazırdılar ki, Xəzər dənizi Azərbaycan üçün gərginlikdir. Hüquqi statusun imzalanması isə sübut etdi ki, əslində Xəzər Azərbaycan üçün heç də problem deyil. Xəzəri ölkəmiz üçün heç gərginlik mənbəyi də saymaq olmaz. Çəkinmədən deyə bilərik ki, Xəzər problemləri müəyyən mənada Türkmənistandan da uzaqlaşdırdı. Xəzərin hüquqi statusu ilə bağlı konvensiyanın imzalanması problemləri Rusiya ilə İranın arasına fokuslandırdı. Xəzərlə bağlı əsas gərginliyi hazırda hər iki tərəf gizlədir. Ancaq məlumdur ki, bu iki ölkənin arasında Xəzərlə bağlı gərginlik var. Çünki Rusiya elə iş qurdu ki, İranın qarşısına qoyduğu ambisiyaların heç biri reallaşmadı. Hətta gələcəkdə də bu ambisiyaların reallaşacağı gözlənilmir. Rusiya artıq Xəzərdə özünün müəyyən mənada, lazım gələcəyi təqdirdə hərbi üstünlüyünü nümayiş etdirə bildi. Bu baxımdan da hesab edirəm ki, Xəzər Azərbaycan üçün təhlükə mənbəyi kimi sıradan çıxdı. Konvensiya Azərbaycanın Xəzər dənizi ilə əməkdaşlıq imkanlarını xeyli genişləndirdi. 2018-ci ildə bizim üçün Xəzərlə bağlı ən önəmli nüanslar qeyd etdiyim hallardır”.

Onu da qeyd edək ki, konvensiya dənizin təkinin və dibinin bölünməsi ilə bağlı suallara aydınlıq gətirməyib. Burada, sadəcə, “Xəzərin dibinin və təkinin bölünməsi beynəlxalq hüququn ümumi qəbul olunmuş prinsip və normaları əsasında həmhüdud və sahilyanı dövlətlərin razılaşması ilə həyata keçirilir”, - deyə cümlə var.

❑ **Əli RAİS, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 280 (7169) 28 dekabr 2018

**Dekabrın son ongünlüyü Azərbaycanda sahibkarlığın inkişafına yönəlik bir sıra addımlarla yadda qaldı. Belə ki, Nazirlər Kabineti sahibkarlıq subyektlərinin bölgüsünə dair qaydaları təsdiq etdi.**

# İri sahibkarın nəyi olmalıdır - 30 milyon manatı, 200-dən çox işçisi və...

## Nazirlər Kabinetinin sahibkarlıq subyektlərinin bölgüsünə dair qaydalarında nələr var...



Bu qaydalara əsasən işçilərinin orta siyahı sayı 1-10, illik gəliri 200 min manatadək olan sahibkarlar mikrosahibkarlıq subyekti hesab olunacaqlar. İşçilərinin orta siyahı sayı 11-50 nəfər, illik gəliri 200 min manatdan 3 milyon manatadək olan sahibkarlar kiçik sahibkarlıq subyekti hesab ediləcəklər. İşçilərinin orta siyahı sayı 51-250 nəfər, illik gəliri 3-30 milyon manat olanlar orta, işçi sayı 251-dən, illik gəliri 30 milyon manatdan yuxarı olanlar isə iri sahibkarlıq subyektləri hesab olunacaqlar. Sahibkarların illik gəlirinə hesabat ili ərzində təqdim edilmiş malların, görülmüş işlərin və göstərilmiş xidmətlərin dəyəri, həmçinin satışdankənar gəlirlər aid edilir.

Bu qərarla yanaşı, bir neçə gün əvvəl ölkə prezidenti tərəfindən "Mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında" fərman imzalandı. Fərmana əsasən mikro, kiçik və orta sahibkarlıq subyektlərinin qaz təchizatı şəbəkələrinə, su təchizatı və tullantı suların axıdılması sistemlərinə qoşulması, həmçinin qazın və suyun ümumi buraxılış həcminin və qoşulma nöqtələrinin dəyişdirilməsi üçün texniki şərtlər ödənişsiz verilir. Bu sahibkarların qaz təchizatı şəbəkələrinə, su təchizatı və tullantı suların axıdılması sistemlərinə qoşulması, həmçinin qazın və suyun ümumi buraxılış həcminin dəyişdirilməsi haqlarının məbləğini Nazirlər Kabineti müəyyən edir. Bu haqlardan başqa, sifarişçidən şəbəkələrin və sistemlərin gücləndirilməsinə görə ödəniş tələb edilə bilməz. Sahibkarların qaz təchizatı şəbəkələrinə, su təchizatı və tullantı suların axıdılması sistemlərinə qoşulması sifarişçinin müraciət etdiyi tarixdən (xəttin çəkilməsi işlərinə sərf olunan müddət istisna olmaqla) ən geci 20 gün ərzində həyata keçirilir.

Bundan əlavə, təbii inhisarda olan mühəndis-kommunikasiya təminatı xidmətləri göstərən təchizat müəssisələri hər bir şəhər və rayon (şəhər rayonu istisna olmaqla) inzibati ərazi vahidi üzrə elektrik enerjisi, qaz və su təchizatı şəbəkələri və sistemləri, həmin sistemlərdə mövcud qoşulma imkanlarını (sərbəst gücləri) əks etdirən məlumatların müvafiq informasiya sistemlərində yerləşdirilməsini və mütəmadi olaraq yenilənməsini təmin etməlidir.

**İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKM) İqtisadi təhlil və analitik-informasiya departamentinin analitiki Nərmin Kazımlı hesab edir ki, fərmana və təyin olunan prioritetlərə uyğun olaraq zəruri sənədlərin alınmasında "bir pəncərə" sisteminin tətbiq edilməsi və subyektlər arasında qarşılıqlı fəaliyyətin optimallaşdırılması məqsədilə müəyyən tələblər formalaşdırılıb:** "Belə ki, artıq sahibkarlara elektrik enerjisi və qaz təchizatı şəbəkələrinə, su təchizatı və tullantı suların axıdılması sistemlərinə qoşulma üzrə texniki şərtlərin və layihə sənədlərinin hazırlanması və verilməsi, sonrakı mərhələdə fiziki qoşulmanın təmin edilməsi məqsədilə müraciətlərin kiçik və orta biznes evlərində (KOB) və "ASAN Kommunal" mərkəzlərində edilməsi imkanı yaradılır".

**N.Kazımlı onu da qeyd edir ki, tikinti obyekti üçün tikintiyə icazə icraatı prosesində texniki şərtlərin əldə edilməsi, tikintiyə icazə verən orqana müraciət əsasında müəyyən tələblər üzrə veriləcək:** "Başqa sözlə, texniki şərtlər qaz təchizatı şəbəkələrinə, su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulma, eləcə də qoşulma nöqtələrinin dəyişdirilməsi üzrə ödənişsiz olaraq veriləcək. Qoşulma və buraxılış həcmlərinin dəyişdirilməsi ilə bağlı vahid haqlar Nazirlər Kabineti tərəfindən müəyyən ediləcək. Nəticə etibari ilə isə kommunal xidmətlərin təmin edilməsi istiqamətində sahibkarların bir platformadan müraciət edərək lazımi sənədləri təqdim etməsi imkanının yaradılması, vahid dövlət rüsumunun müəyyənləşdirilməsi və qısa müddət ərzində fiziki qoşulmanın təmin edilməsi Azərbaycanın "Doing Business" və digər beynəlxalq reytinq qiymətləndirmələrində mövqeyinin irəliləməsinə də təsir edəcəyi gözlənilir".

**İqtisadçı-ekspert Pərviz Heydərovun "Yeni Müsavat"a bildirdiyinə görə, yanvarın 1-dən ölkədə yeni vergi dəyişiklikləri işə düşür:** "Hələ bunun nə kimi effekt verəcəyi bəlli deyil. Lakin əsas məqsəd bəllidir; ölkədə kiçik və orta sahibkarlıq fəaliyyətini stimullaşdırmaq, qeyri-neft məhsulları istehsalını və ixracını genişləndirmək... Ümumiyyətlə, sahibkarlığın inkişafı, biznes mühitinin daim yaxşılaşdırılması hökumətin sosial-iqtisadi siyasətinin əsasını təşkil edir. Bu baxımdan, sahibkarlıq subyektlərinin elektrik enerjisi və qaz təchizatı şəbəkələrinə, su təchizatı və tullantı suların axıdılması sistemlərinə qoşulma prosedurlarının təkmilləşdirilməsi, tələb olunan vaxtın və maliyyə xərclərinin optimallaşdırılması, onlara göstərilən xidmətlərin yüksək səviyyədə, keyfiyyətlə, rahat və sahibkar məmnunluğu əsasında reallaşdırılması məsələnin tərkib hissəsini təşkil edir. Belə ki, burada şəffaflığın təmini, proseduru sadələşdirilməsi, vaxt itkisinə yol verilməməsi diqqət mərkəzində saxlanılmaqdadır. Xatırladım ki, beynəlxalq qurumların ölkəmizə dair hesabatlarında da bu sahədə görülən işlər yüksək qiymətləndirilməkdədir.

Elə prezidentin sonuncu dəfə imzaladığı fərmanda da mikro, kiçik və orta sahibkarlıq subyektlərinin qaz təchizatı şəbəkələrinə, su təchizatı və tullantı suların axıdılması sistemlərinə qoşulması, həmçinin mövcud qoşulmalarda qazın və suyun ümumi buraxılış həcminin, qoşulma nöqtələrinin dəyişdirilməsi üzrə yeni tələblərin ortaya qoyulması bununla əlaqədardır. Sahibkarlara qaz təchizatı şəbəkələrinə, su təchizatı və tullantı suların axıdılması sistemlərinə qoşulmaq, həmçinin qazın və suyun ümumi buraxılış həcminin və qoşulma nöqtələrinin dəyişdirilməsi üçün texniki şərtlərin ödənişsiz veriləcəyi, bundan başqa dəyişdirilməsi zamanı hökumətin müəyyən etdiyi haqlardan əlavə heç bir ödənişin tələb edilə bilməyəcəyi və sair, dövlət tərəfindən öz üzərinə düşən nə öhdəliklər varsa, bunları hər cəhətdən təmin edəcəyi deməkdir. Ümumiyyətlə, bir var, maliyyə və stimullaşdırıcı tədbirlər, bir də var ki, texniki şəraitin təmini. Hökumət bunları paralel icra etməkdədir".

❑ **Dünya SAKİT,**
**"Yeni Müsavat"**



# Polad Bülbüloğlunun qardaşına 200 min "atan" şəxs hökmdən şikayətçidir

**Məmməd Nəsibov 400 min manata yaxın dələduzluq edib.**

Bakı Apelyasiya Məhkəməsində dələduzluqda təqsirləndirilən Məmməd Nəsibovun barəsində olan hökmdən verilən apelyasiya şikayəti üzrə məhkəmə iclası başlayıb.

"Report"un xəbərinə görə, hakim Rizvan Səfərovun sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmənin növbəti iclası 2019-cu il yanvarın 11-nə təyin edilib.

Qeyd edək ki, M.Nəsibov vətəndaşların etibarından sui-istifadə edərək onlara qarşı 400 min manata yaxın dələduzluq edib.

İttiham aktına əsasən, o, İradə İsmayılovaya Hövsan qəsəbəsində 15 sot sənədsiz torpağı 21 min 500 manata satıb, Çingiz Məmmədova Abşeronda yaşayış evi tikdirmək adı ilə onun 200 min manat pulunu dələduzluq yolu ilə ələ keçirib.

Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə o, 8 il 6 ay müddətinə azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan məhkum apelyasiya şikayəti verib. Bakı Apelyasiya Məhkəməsində daha əvvəl işi baxılan zaman apelyasiya şikayəti hərəkətsiz saxlanılıb. Qərara əsasən, iş baxışdan çıxarılıb və birinci instansiya məhkəməsinə qaytarılıb. Bakı Ağır Cinayətlər Məhkəməsində işə yenidən baxıldıqdan sonra məhkum yenidən apelyasiya şikayəti ilə Bakı Apelyasiya Məhkəməsinə müraciət edib.

Xatırladaq ki, zərərçəkmiş Ç.Məmmədov Azərbaycan bəstəkarı və müğənnisi, Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlunun qardaşıdır.

YENİ MÜSAVAT
N 280 (7169) 28 dekabr 2018

# “Sovetski”də Bağırov qardaşlarının söküntü kələyi

## Evi aldadılaraq sökülən vətəndaş dövlət qurumlarından kömək istəyir

**“Mənə məxsus olan evlər Bakı şəhəri, Akademik A.Qarayev küçəsi 23 saylı və həmin küçənin kəsişməsində yerləşən M.A.Əliyev küçəsi, 32 saylı evlər (”Sovetski" adlanan ərazi) Nazirlər Kabinetinin müvafiq qərarı ilə söküntü zonasında yerləşir. Evə dair qohumuma Dövlət Notariat Kontorunda təsdiq edilmiş etibarnamə vermişdim ki, Söküntü Komissiyasında iştirak etsin və alqı-satqını rəsmiləşdirsin".**






Aydın Ağaəli oğlu Rzayev redaksiyamıza təqdim etdiyi şikayətində belə yazır. O, “Sovetski”də Bağırov qardaşlarının bir generalın adından istifadə edərək qanunsuzluq etmələrindən şikayətçidir: “2018-ci ilin sentyabr ayının əvvəllərində söküntü zonasında yerləşən evlərin ölçü işlərini aparan ”Azər Expert" MMC-nin rəhbəri qəfildən yaşadığım Bakı şəhəri, M.A.Əliyev küçəsi 32 saylı evə gəldi. Özünü İlham Bağırov kimi təqdim etdi və qonaq qəbul edəcəyimi soruşdu. Mən də İlham Bağırovun evimə girməsinə etiraz etmədim. İlham mənə bildirdi ki, sən qohumun Natiqə etibarnamə vermisən ki, komissiyada iştirak etsin. Bildirdi ki, Natiq komissiyaya girməsin, o, hər dəfə gəlir komissiyaya buraxmırıq. Dedi ki, sən Natiqdən etibarnaməni al, o gəlməsin, mən nə lazımdırsa sənə artıqlaması ilə edəcəm. Bildirdi ki, mənim indiki evimdə problem var (yeni tikili), qoy bir az vaxt keçsin, 2 evin məsələsini bir dəfəlik həll edərik. İlham Bağırova bildirəndə ki, məndə nə problem var axı, evlər mənə məxsusdur, çıxarışlarım var. Cavabı belə oldu ki, sən bilmədiyin şeylər var, Maliyyə Nazirliyinin idarə rəisi Cavanşir Yusifovun qohumum Natiqdən xoşu gəlmir. Qeyd etmək istəyirəm ki, Natiq özü hüquqşünas olduğu üçün onlarla hüquqi müstəvidə qanuni tələb qoyması onların xoşun gəlməyib. Natiqin iştirakı olduğu komissiyada onlar Natiqi istədikləri tərzdə aldada bilmirlər. Ona görə də mən Natiqə əmlakımı etibar edib, mülkümün rəsmiləşdirilməsində, pulların alınmasında, pulların verilməsində iştirakını istədim. Onlar isə əksinə, dedilər ki, Natiq komissiyaya girsə, sənin pulunu kəsəcəklər, gəl, sən biz deyəni elə, mən sənə artıq kvadrat metr də yazacam. Onların mənim Natiqlə etibarlı şəkildə iş görməyimdə narahatlığı nə idi? Fərqi nədir, pulu Natiq götürdü və ya mən götürdüm. Hətta xatırlayıram ki, cavabım belə oldu ki, “neynək daha deyirsən problem yoxdur, artıq kvadratlar özünə qalsın, mənim halal pulumu verin, mənə bəsdir”. Bütün bu söhbətlər evimdə olub. Belə olan halda İlham Bağırov başqa bir nəfəri bizə dəvət etdi və söylədi ki, bütün işləri yenidən ekspertiza edib, sənədləri dəyişib, sənin işini həll edəcəm. Həmin adam məlum oldu ki, onun qardaşıdır, heç yerdə işləməyən, özünü “qoçu” kimi aparan Zahid Bağırovdur".

**Şikayətçi deyir ki, İlham Bağırov gedəndən sonra qohumu Natiqi çağırıb məsələni ona başa salıb:** “Sənədlərimi ondan geri alanda Natiq mənə verdiyim sənədlərdən əlavə də Bakı şəhər Yasamal Rayon İcra Hakimiyyətinə və Bakı şəhər Yasamal Rayon İcra Hakimiyyətinin təşkil etdiyi Daşınmaz Əmlakın Dövlət Ehtiyacları üçün alınması ilə əlaqədar komissiyaya ünvanladığı ərizəni və İlham Bağırovun rəhbərlik etdiyi ”Azər Expert" MMC-nin yerləşdiyi və Komissiyanın təşkil olunan ünvanı olan Bakı şəhəri, İnşaatçılar prospekti 28 “B” saylı ünvana göndərilən məktubu bilərəkdən qəbul etməkdən imtina aktını verdi ki, zaman gələndə lazımın olacaq. Eşitdiyimə görə həmin müəssisənin indiki adı “BTİ Ekspert” MMC kimi adla əvəz olunub. Adın dəyişməsinin səbəbi vergidən yayınma və bu adın ölkə üzrə bütün dairələrdə hallanması olub. Sentyabrdan noyabrın axırına qədər İlham Bağırovla üzbəüz və mobil telefon vasitəsilə dəfələrlə danışmışıq. Hər dəfə müxtəlif bəhanələrlə bu gün-sabah komissiyaya girəcəyimi vəd edib. Hətta Akademik A.Qarayev küçəsi, 23 saylı evi sökmək istəyəndə yenə gəldi ki, maneə törətmə, qoy söksünlər, sözüm sözdür, mənlikdir, həll edəcəm.

Dekabrın əvvəllərində, nəhayət, komissiyaya rəhbərlik edən Cavanşir müəllimin də iştirakı ilə məni komissiyaya dəvət elədilər. Komissiyaya girməmişdən bir gün əvvəl İlham Bağırov mənimlə görüşdü. Dedi ki, sənin bəzi tikililərində problem var, həmin hissədə hər kvadrata görə 200 manat verməlisən. Ona bildirəndə ki, bəs verdiyin sözlər nə oldu? Cavabı yenə belə oldu ki, həmin pul sənin əmlakının bəzi hissələrinə aiddir. Bildirirəm ki, onlar əmlakı ekspertiza edən zaman vətəndaşlara qanuni mənzilinin yaşayış və qeyri-yaşayış sahələrinə bölüb qiymətlərdə müəyyən sürüşmələr edirlər. Məsələn, yaşayış sahəsinə 1500 manat verildiyi halda, qeyri-yaşayış sahəsinə 600-800 manat, pilləkənlərə enindən, hündürlükdən asılı olmayaraq 200-400 manat verirlər. Vətəndaşları bu tərzdə aldada bilirlər. Şübhəsiz, bu işləri onun qardaşı heç bir yerdə adı getməyən Zahid Bağırov özü edir. Belə neqativ hallar bütün “Sovetski” ərazisində dəfələrlə olub. Vətəndaşlara öz evinin kvadrat sahələri aldadılaraq, guya artıq imiş bəhanəsi


AKT
Direktor:
A.Bağırov

ilə özlərinə satılıb və onlardan pullar alınıb. Bunu əminliklə deyə bilərəm. 1000 manata yaxın əmək haqqı alan İlham Bağırovun Nabran, Mərdəkan, Quba, İstanbulda qardaşı Zahid Bağırovun adına rəsmiləşdirdiyi ofis və villalar, oğlanlarında olan “Lexsus” markalı maşınların hansı pulla alınması məlum faktdır. Oturduğu ofisi üçün də ayda 5 min manata yaxın kirayə pulunu dövlətdən alır. Yəni obyektini dövlət pulu hesabına özü-özünə kirayə verib. İlhama bildirdim ki, sənə heç nə verməyəcəm. Sən məni aldatdın, evimi də pulumu almadan sökdürdün. Cavabında kinayə ilə “yaxşı!” dedi. Səhəri gün Komissiyada olanda mənim Bakı şəhəri, M.A.Əliyev küçəsi, 32 saylı evimin bəzi hissələrinə hətta hər kvadrat metr sahələri 1500 manat dövlət tərəfindən nəzərdə tutulduğu halda 800 manat verildi və Bakı şəhəri, Akademik A.Qarayev küçəsi, 23 saylı evə isə ev söküldüyündən hər 1 kvadrat metr sahəyə isə 500 manat təklif olundu. Bununla da İlham Qismət oğlu Bağırov tərəfindən mənə və ailəmə əmlakım məhv olmaqla külli miqdarda ziyan vuruldu. Bir neçə gün bundan əvvəl İlham Bağırovun iş yerinə (Komissiyanın yerləşdiyi) gedib ona bildirəndə ki, onun barəsində şikayət edəcəyəm, mənə çox sərt şəkildə və arxayınlıqda dedi: “Get, nə istəyirsən elə, əcəb etmişəm, mənim arxamda general durub. Sən kimin adamısan?” Bu mənə çox pis təsir etdi. Deməli, bu ölkədə hərənin bir adamı olmalıdır? Mən özümü yandırmaq qərarına gəlmişəm. Çünki mən heç kimin adamı deyiləm, mən sadə azərbaycanlıyam. Bundan uzaqlaşıb gedəndə qardaşı Zahid söhbətimizi eşidib, qardaşı İlhama gülə-gülə dedi ki, “bilmir kimə ilişib, getsin nə istəyir, əlindən gələni etsin, general həm qonşumuz, həm də qohumumuzdur”. Bunu mənə eşitdirirdi. İlhama dedi ki, bunları niyə buraxırsan ofisə".

**Şikayətçi dövlət qurumlarından məsələ ilə bağlı araşdırma aparılmasını da xahiş edib.**

**Yazıda adları keçən şəxslərin də mövqeyini dərc etməyə hazırıq.**

**❑ E.HÜEYNOV,**
**Fotolar E.ƏKBƏR**
**“Yeni Müsavat”**

## TƏBRİK



*Bu gün Rəsul balanın doğum günüdür. Tam bir il öncə, bu gözəl gündə igidimiz dünyaya göz açdı. Həyatımıza bol sevinc və xoşbəxtlik qatıldı. Sənə tam səmimi qəlbdən dünyanın ən gözəl nemətlərini arzu edirik. Ağıllı, kamallı ol! Atanın və ananın fəxri, ailənin qüruru olasan! Səni çox sevirik! Atan İlkin bəy, anan Ayşən xanım, babaların Əlsuvar bəy, Rəfael bəy, nənələrin Brilyant xanım, Şərafət xanım, bibilərin və xalan təbrik edirlər.*

# İnternetdə narkotik satan dəstə məhkəmə qarşısında

## “Baba” adlı şəxs sifarişi qəbul edəndən sonra narkotik vasitələrin pulu ona “paypoint” vasitəsilə ödənilirmiş

**Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində narkotik maddələrin satışı ilə məşğul olmaqda təqsirləndirilən Əlizadə Məhəmməd, Tural Əlizadə, Rafiq Yusubzadə və Samir Zeynalovun cinayət işi üzrə məhkəmə iclası başlayıb.**



Hakim Əfqan Hacıyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxslərin anket məlumatları dəqiqləşdirilib.

Məhkəmənin baxış iclası yanvarın 4-nə təyin edilib.

İttihama görə, Baş Narkotiklərlə Mübarizə İdarəsinin (BNMİ) əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbiri nəticəsində Masazır qəsəbəsində Lənkəran şəhər sakinləri - Məhəmməd Əlizadə, Tural Əlizadə və Rafiq Yusubzadə şübhəli şəxs qismində saxlanılıblar. Onlardan ümumilikdə 2 büküm sintetik kannabinoidlərə aid narkotik vasitə olan “Spays”, 2 büküm psixotrop maddə “Metamfetamin” və 4 ədəd 300 mq-lik güclü təsiredici “Lyrica” kapsulaları aşkar olunaraq götürülüb.

M.Əlizadəyə qeyd edilən narkotik vasitə, psixotrop və güclü təsiredici maddələri gətirən Bakı şəhər sakinləri - Samir Zeynalov, Sərxan Məmmədov da saxlanılıb. Baxış zamanı S.Zeynalovdan 1 ədəd “Lyrica” kapsulası, 1 büküm “Spays” və qurudulmuş marixuana aşkar olunaraq götürülüb.

Qeyd edilən narkotik vasitələrin satışı hazırda xarici ölkələrdən birində yaşayan və şəxsiyyəti istintaqa məlum olan, dəstə üzvlərinin “Baba” kimi tanıdığı şəxs tərəfindən təşkil edilib. Həmin şəxs narkotik maddələri satmaq üçün qeyd edilən şəxslərdən ibarət şəbəkə yaradıb. O, müxtəlif onlayn alış-veriş saytlarında qeydiyyatdan keçərək əsasən gənclərə psixotrop tərkibli dərman və narkotik vasitələri almağı təklif edib. Araşdırma zamanı məlum olub ki, “Baba” adlı şəxs sifarişi qəbul edəndən sonra narkotik vasitələrin pulu ona “paypoint” vasitəsilə ödənilib. Pul hesaba köçürüləndən sonra əməliyyat zamanı saxlanılan şəxslər narkotik maddələri, eləcə də psixotrop dərmanları əvvəlcədən razılaşdırılan yerlərdə müştərilərə təhvil veriblər.

**❑ İlkin MURADOV,**
**Musavat.com**




Cümə söhbətləri

# Çətinlik şəraitində davranış düsturu

**Bismilləhir-Rahmənir-Rahim!**
**İslam tarixində baş verən müxtəlif hadisələrdə, Qurani-Kərimin də onlarla bağlı bizlərə verdiyi dərslərdə böyük ibrətlər və hikmətlər var. Bunlardan ən böyüklərindən biri də Ühüd döyüşü və ondan sonrakı vəziyyətlə bağlıdır.**



Hacı İlqar İBRAHİMOĞLU, ibrahimoglu@gmail.com
İlahiyyatçı-filosof, İçərişəhər Cümə məscidinin imam-camaatı

Ühüd döyüşü və ondan sonrakı vəziyyəti anlamaq üçün Bədrdəki uğuru xatırlamaq lazımdır.

### Arxayınlıq və rahatlaşmanın fəsadları

Təsəvvürümüzə gətirək ki, imanlı və nəcib bir müsəlman toplumudur. Məkkədən Mədinəyə hicrət edib. Mədinədə ümmət halında tam şəkildə formalaşır. Bundan sonrakı mərhələdə bu cəm, ilk döyüşünə çıxır - insanlar Bədrdə ən ali şəkildə imtahanlarını verirlər. Ühüd döyüşündə isə artıq bir arxayınlaşma və rahatlaşma meydana gəlir və acı nəticələr dərhal özünü göstərir.

Ühüddəki vəziyyət, psixoloji ovqat Bədrlə müqayisədə xeyli fərqlidir. Ühüddə bir qədər arxayınlıq, bir qədər qənimət fikirləşmə, Bədrdəki uğura əsaslanan bir rahatlaşma var. İndi təsəvvürümüzə gətirək ki, bu iki döyüşdən sonra bir vəziyyət meydana gəlir ki, Məkkə müşrikləri dayanmaq istəmirlər, növbəti dəfə toparlanıb, cəmləşib öz tərəflərindən mövzunu yekunlaşdırmaq istəyirlər. Artıq bir vəziyyətdir ki, Ühüddə bəlli nəticələrə çatıblar, düşünürlər ki, artıq vaxtdır və fürsətdir.

### Qurani-Kərimdə Ühüddən sonrakı vəziyyətin təsviri

Qurani-Kərim bizə bu səhnəni belə çatdırır. “Ali-İmran” surəsinin 173-cü ayəsində buyurulur: “Həmin o kəslər (üçün) ki, camaat onlara "(Məkkə) camaat(ı) sizin(lə vuruşmaq) üçün toplaşıb, onlardan qorxun" dedi, amma (bu xəbər) onların imanını artırdı və dedilər: "Bizə Allah kifayətdir və O, gözəl vəkildir”.

Allah Təala ayədə bizə çatdırır ki, zahirdə müsəlman olanlar, möminlərə bəyan edirlər ki, Məkkə müşrikləri toparlanıblar ki, sizinlə vuruşsun. Bunu deməkdə məqsədləri odur ki, möminləri qorxutsunlar. Ayənin ardında Allah Təala həmin möminlərin vəziyyətini bizlərə çatdırır. Bu şayiəni, psixoloji hücumu, təhlükə haqqında məlumatı eşidəndə möminlərin imanı artır və bəyan edirlər ki, Allah onlara kifayətdir və Allah ən gözəl vəkildir.

Müsəlmanlar öz yaşayışlarında müxtəlif vəziyyətlərə düşüblər. Bəzən uğurları olur, bəzən uğursuzluqları olur, bəzən asan olur, bəsən çətin olur, bəzən mühasirədə olurlar. Biz Quranda bu insan davranışlarını, qrupların davranışlarını öyrənərək, həyatımıza tətbiq edə bilərik. Başa düşülən budur ki, düşmən heç bir zaman işini bitmiş hesab etmir. Əgər Ühüddə hər hansı bir uğura çatıblarsa, bəsdir demirlər, hazırlaşıb bir daha hücum edirlər.

Misal üçün, bəzən deyirlər ki, düşmənlərin İslam ümmətinin filan mövzusu ilə bağlı məsələləri var, yəqin bununla bağlı istədiklərinə çatsalar, sonra daha rahatlanarlar. Allahın ayəsi bizə göstərir ki, düşmən bununla rahatlamır. Əgər azacıq da olsa, nə iləsə bağlı uğura çatırlarsa, sonra ardı gələcək, sonra daha ardı gələcək və s. Bu, İslamla düşmənçilik edənlərin zati-psixoloji durumudur.

“Bir qədər istədiklərini əldə etsələr, əl çəkərlər” fikri kökündən yanlışdır. Nə Məkkə müşrikləri elə idilər, nə də İslamın bütün dövrlərində düşmənləri o cür olublar. Əgər ayaqları balaca yer tutsa, ardını gəlirlər.

### Ühüddən sonra Allahın və Rəsulunun (s) müsəlmanlara çağırışı var

Öncəki ayələri nəzərə alaraq, təfsiri nöqtələrə diqqət edəndə görürük ki, Allahın və Onun Rəsulunun (s) möminlərə bir çağırışı, dəvəti var. Bu ayə - o çağırışa və dəvətə cavabdır. Həqiqi möminlər o çağırışa və dəvətə cavab verirlər. Ühüd döyüşündən sonra Allahın və Onun Rəsulunun (s) çağırışı var ki, möminlər imanlarında, ruhiyyələrində, Allah yolunda fədakarlıqlarında diqqətli olsunlar.

Möminlər Ühüd döyüşündən sonrakı bu çağırışa müsbət cavab verirlər. Müsbət cavab verənlər o kəslərdir ki, Məkkə müşriklərinin psixoloji hücumlarından qorxmurlar, zəifləmirlər. Əksinə, onların imanı və fədakarlıqları bir qədər də irəliləyir.

### Ühüddən sonra düşmənin təsir mexanizmləri artır

Ayədən başa düşülən odur ki, Ühüd döyüşündən sonra düşmənin adamlarının, Məkkə müşriklərinin adamlarının müsəlmanların arasında təsir mexanizmləri əmələ gəlir. Ühüd döyüşündən sonra düşmənin müsəlmanlara təsir mexanizmləri müəyyənləşir və güclənir. Müsəlman toplumunun içərisində bunların sözünü danışan, bunların fikrini təkrar edən, bunların yaratdıqları xofu, narahatlıqları yayanlar meydana gəlir.

Düşmən hər zaman hər şeyi etməyi bacarmır. Bəzən bir mövzuları yayır, amma əsas işi o kəslər görür ki, bunu gəlib toplumun içərisində təkrarlayırlar. Deməli, Ühüd döyüşündən sonra düşmənin müsəlmanlar arasında təsirləri əmələ gəlir. Psixoloji savaşlarda onlar müsəlmanların ruhiyyəsini aşağı salmaq üçün kifayət qədər bu təsir agentlərindən istifadə edirlər.

### Düşmən bir nailiyyəti ilə kifayətlənmir

Ayədən çıxan təfsiri çalarlardan biri də budur ki, məsələ Ühüdlə bitmir. Bədrdə uduzan müşriklər Ühüddə bir qədər vəziyyəti fərqləndirməklə kifayətlənmirlər. Ühüddə əksinə, ürəkləniblər və ardını istəyiblər. Buradan çıxan mövzu odur ki, dünyada olan müsəlmanlar bunu dərk etməli, anlamalıdırlar ki, onlardan istənilənlər ki, var, nəyi əldən versələr ardını yenə istəyəcəklər. Sona qədər, axıra qədər düşmən məqsədindən əl çəkməyəcək.

Ayədən anlaşılan çalarlardan biri də budur ki, müsəlmanlar arasında müsəlman olub panikanı yayanlar da olub. Deməli, bu mövzuya da hər zaman diqqət etmək lazımdır. Müsəlman toplumlarının içərisində düşmənin verdiyi psixoloji təsirləri ötürənlər olur və panikaya düşüb, onu yayanlar olur. Ayədə birbaşa olaraq həmin kəslərin ötürücülüyünə işarə var.

Təfsiri nöqtələrdən biri də budur ki, imanın dərəcələri və iman arta bilir. Möminlərin qorxudulmaqlarının müqabilində, əksinə olaraq imanları artır. Deməli, bütün hadisələrlə qarşılaşan zaman insanın ya imanı zəifləyir, ya da imanı artır. Bütün hər şey bu şəraitdə möminlərin imanını zəiflətməyə hesablanmışdısa da, həqiqi möminlərin əksinə olaraq, imanları artır.

Həqiqi möminlər düşmənin çoxluğundan və onların hücum hazırlıqlarından panikaya düşmürlər. Düşmənlərin bu hazırlıqları möminlərin imanının artmasına səbəb olur. Biz adətən görürük ki, düşmən güclənəndə əks tərəfdə bir qədər psixoloji təsirini qoyur və bir qədər zəifləmə baş verir. Amma həqiqi möminlər o kəslərdir ki, düşmənin güclənməsi nəinki onları qorxutmur, əksinə, imanlarının artmasına səbəb olur.

### İmanın artması təvəkküllərlə bağlıdır

Möminlərin bu psixoloji hücuma reaksiyaları Allaha təvəkküllərinin artması halında üzə çıxır. Möminlərin imanının artması özünü onların Allaha təvəkkül etməsində göstərir. Möminlər bəyan edirlər ki, Allah onlara kifayətdir və Allah ən gözəl vəkildir. Onlar özlərindən asılı olanı edəcəklərini, qalanında Allaha sığınacaqlarını, Allahla kifayətlənəcəklərini bildirmiş olurlar. Həqiqi mömininin reaksiyası bu olmalıdır. Deməli, təvəkkül etmək - panikaya düşməyin tam əks vəziyyətidir. Allaha inamları olduğu üçün çox rahatdırlar, aramlıqları var.

Təvəkkül və düşməndən qorxma bir yerdə ola bilməz. Onlar hər şeyi edirdilər ki, möminlər qorxsun və xoflansın. Əgər qorxsaydılar, təvəkkül edə bilməyəcəkdilər. Biz müasir tariximizdə də bunun çoxsaylı nümunələrini görürük. Möminlər qorxmadıqlarına və Allaha təvəkkül etdiklərinə görə nəticələrə çata bildilər. Düşmən hər şey etmişdi, baş kəsməklə, qan tökməklə qorxulu bir obraz yaratmışdı ki, müsəlmanları məğlub edə bilsin. Möminlər qorxmadılar və təvəkkül etdilər, nəticələri göz qabağındadır. Fələstində, Livanda, Suriyada, İraqda, Yəməndə, Bəhreyndə müsəlmanların qələbələrinin səbəbləri budur. Qorxmular, təvəkkül edirlər - geci-tezi var, amma mütləq nəticələrə çatacaqlar.

Düzdür, ağrılıdır, çox üzücüdür, amma artıq nəticə əldə ediblər, ümmətin üzünü ağ ediblər. Düşmənin qəddarlığının, həqiqi mahiyyətinin iç üzünü açıq şəkildə bütün dünyaya göstəriblər. Əgər insan düşməndən qorxsa təvəkkül edə və savaşdığı həqiqi amala çatmağı çətinləşər.

### İman və təvəkkül yanaşıdır

Ayədən çıxan nöqtələrdən biri də budur ki, iman və təvəkkül yanaşıdır. “Mən iman gətirdim” deməklə iş olmur. İman - əməl tərkibli bir mövzudur. İnsanın imanının artması özünü nədə göstərir? Bəyan edir ki, Allaha təvəkkül edir və Allah ona kifayətdir. Bu, əməli bir mövzudur. Düşmən üz-üzə gəlir, səni məhv etməyə çalışır və sən Allaha təvəkkül edib, düşmənin qarşısından çəkilmirsən.

Bir mühüm təfsiri nöqtə də budur ki, möminlər qorxmurlar, say onları qorxutmur. Çox təəssüflər olsun ki, bəzən insanların qərar vermələri sayladır. Bəzən say insanlarda vahimə yaradır. İnsanların imanına bəzən bu da təsir edir ki, elə zənn edirlər ki, əgər kiminsə sayları çoxdursa, demək ki, onlar düz olan tərəfdir.

### Allah həqiqi möminlərin kifayət edəni və vəkilidir

Allah Təala həqiqi möminlərin kifayət edəni və vəkilidir. Bu, çox böyük sözdür. Əgər insan anlasa ki, Allah Təala həqiqi mömininin kifayət edəni və vəkilidir, mövzu bitər, onda hər şey yekunlaşar. Həqiqi iman budur. Əgər bunu anlamasa, bunu bilməsə, bundan irəli gələrək davranmasa, bir gün Məkkə müşriklərinin təzyiqlərinə təslim olar olacaq, bir gün İŞİD-in hoqqalarına tabe olacaq, bir gün hegemon dövlətlərin önündən çəkiləcək və s.

Müasir dövrdə həqiqi möminlər bu ayənin mistaqıdırlar. Hər tərəfdən təhdidlər var, hər tərəfdən möminlərin üzərinə gəlirlər, istəyirlər ki, iman işığını söndürsünlər. Amma möminlər nəinki qorxmurlar, əksinə imanları artır. Baş verən çətinliklər onlar üçün imanlarının artma fürsətinə çevrilir. Nəinki təhdidlərdən əzilmirlər, zəifləmirlər, əksinə imanları artır.

Təhdid var, amma çarə də var. Quran ayəsi bizi öyrədir ki, hər təhdidin qarşısında çarə də var. Çarə budur ki, insan imanına yiyə dursun və Allaha təvəkkül etsin. Əvvəlcə təhdidi tanımaq lazımdır və əgər insan bu cür davransa, bu halda Allahın da xüsusi inayətləri nəsib olar. Vacib deyil ki, bunun təzahürləri maddi olsun. Bəzən maddi tərəfi olar, bəzən olmaz. Mühüm odur ki, Allahın qeybi köməklikləri deyildikdə, insanın mənəvi, xeyirli aqibəti anlaşılsın.

Bəzən Allahın qeybi köməklikləri fiziki, maddi kontekstdə də özünü göstərir, bəzən də göstərmir. Biz Yəməndəki vəziyyətə diqqət edəndə görürük ki, maddi kontekstdə vəziyyət çox acınacaqlıdır. Amma yəmənlilər sübut etdilər ki, fələstinlilərin düşmən qarşısında dayanması bir istisnavi durum deyil. Göstərdilər ki, harada iman ruhiyyəsi yaşadılsa, o cür nümunələr meydana gələ bilər.

Möminlər gərək xoflanmasın, aram olsun, çətinliklərdə imanları artsın. Bu da yalnız təvəkkülün hesabına mümkündür. Bunun üçün də Allahı tanımaq lazımdır. Allahı tanısa, bilər ki, Allah ona hər bir məsələdə kifayətdir. Bu mövzulardan ibrət götürmək - hər birimizin həyatı üçün çox önəmli və faydalıdır.

**Allahım, bizləri Sənə həqiqi təvəkkül edənlərdən və Səni kifayət bilənlərdən qərar ver!**

**Allahım, bizlərə sınaq və çətinliklər zamanı imanımızın artmasını nəsib et!**

**Allahım, aqibətlərimizi xeyirli et! Amin!**

YENİ MÜSAVAT

Son səhifə

N 280 (7169) 28 dekabr 2018



## Qara şokoladın ürəyə heç bir faydası yoxdur

Sən demə, şokoladın ürəyə heç bir faydası yox imiş. Ən əsası isə qara şokoladın infarkt riskini azaltması əfsanə çıxdı. Alimlər müəyyənləşdiriblər ki, şokoladın ürək xəstəliklərinə faydalı olması, infarkta yaxalanma riskini ortadan götürməsi ilə bağlı ortada hər hansı sübut yoxdur. Almaniyadakı Leipziq Ürək Mərkəzi Universitetindən həkim Steffen Desch bildirib ki, bu barədə deyilənlər, sadəcə, əfsanədir və ortada hər hansı ciddi sübut yoxdur. S.Desch bir neçə dəfə belə araşdırmalar aparsa da, qara şokoladın ürəyə faydaları barədə hər hansı elmi sübut ortaya qoyulmayıb.

## Xəyanət edən ərini sendviçlə zəhərlədi

ABŞ-ın Florida ştatında, Bartou şəhərində bir qadın ərini balıqlı sendviçlə zəhərləmək istəyib. 37 yaşlı Beth Dickison Richards adlı kadın üçüncü dərəcəli cinayətə təşəbbüs etdiyi üçün saxlanıb. Kişi bildirib ki, həyat yoldaşı ona israrla bu sendviçi yeməyi təklif edib. O da bunun zəhərli olmasından şübhələnməyərək, həyat yoldaşının təklifini qəbul edib. Nəticədə sendviçi yeyəndən qısa müddət sonra kişi mədə bulantısı şikayəti ilə xəstəxanaya aparılıb. Xəstəxanadakı ilkin müayinə zamanı kişinin zəhərləndiyi ortaya çıxıb. Qadın isə öz günahını qəbul edib. Deyib ki, əri ona bir neçə dəfə xəyanət etdiyi üçün bu formada intiqam almaq istəyib.

# Pis xatirələrdən belə qurtulmaq olar



Pis xatirələrdən qurtulmaq mümkün olacaq. "San Dieqo School of Medicine"də çalışan elm adamları bu işi laboratoriya şəraitindəki siçanlarla sınaqdan keçirdikdən sonra nəticə əldə ediblər. Elm adamları əvvəlcə siçanın işıqdan qorxması üçün şərait yaradaraq bir təcrübə aparıblar. İşığa doğru gedəndə ayağından elektrik verilən siçan işıqdan qorxmağa başlayıb. Daha sonra neyronlar arasındakı bağlantını qopararaq siçanın bu qorxusuna tamamən qalib gəlməsinə nail olunub. İşin maraqlı tərəfi odur ki, siçanın neyronlarının arasındakı bağlılıq gücləndiriləndə siçan təkrar işıqdan qorxmağa başlayıb, yəni yaddaşında yox olan xatirələr geri gəlib. Bu sınaqla Jim Carreynin məşhur filmi ağla gəlsə də, araşdırmaçılar bunun "Alzheimer" xəstələri üçün istifadə oluna biləcəyini düşünür. Bu günlərdə isə dünyada pis xatirələrdən qurtulma günü keçirilib. İnsanlar il ərzində ən pis xatirələrini vərəqə yazıb, simvolik olaraq onlardan qurtulurlar.

# Yeni il tətilində stüardessa qızını tək qoymamaq üçün... uçuşlara bilet aldı

Amerikada bir ata yeni il tətilini birlikdə keçirə bilmək üçün qəribə üsula baş vurub. Qızı "Delta" Hava Yollarında stüardessalıq etdiyi üçün sözügedən şirkətin bütün uçuşlarına bilet alıb. Detroitli ata Hal Vaughen, tətildə çalışmağa məcbur olan qızı Pierce Vaughanı yalnız qoymamaq üçün 2 gündə 6 dəfə təyyarə səfəri edib. Bu məsələ Vaughenin öz qızına etdiyi jest yanında oturan bir sərnişinin facebookdakı paylaşımı ilə geniş yayılıb.

Mike Levi adlı sərnişinin "Evə dönüş zamanı Halın yanında oturma qürurunu yaşayıram. Hal yeni ildə çalışmaq zorunda qalan stüardessamız Piersin atasıdır" mesajı 27 min dəfədən artıq paylaşıldı. Levi daha sonra aşağıdakıları yazıb: "Hal yeni il tətilini qızıyla birlikdə keçirməyə qərar verib. Bugünkü və sabahkı bütün uçuşlarda qızıyla birlikdədir. Nə gözəl atadır" deyib.







## Cənazədə saxta içki verildi...daha 12 cənazə oldu

Dominikan Respublikasında saxta içki ucbarından ölənlərin cənazəsinə gələnlərə də eyni içki verildiyi üçün ümumən 12 nəfər dünyasını dəyişdi. Haiti sərhədinə yaxın bölgədə evdə hazırlanan və tərkibində metanol olan likörün ilk olaraq keçən həftə ölümə səbəb olduğu açıqlandı.

Bu insanların yas mərasimində qonaqlara təqdim edilən likörün isə daha sonrakı ölümlərə yol açması da ölkədə ciddi müzakirələr yaratdı. Belə ki, ümumilikdə bu içkiyə görə 12 nəfər ölüb, 21 nəfər isə xəstəxanaya aparılıb. Səhiyyə naziri Altagracia Guzman deyib ki, hüquq-mühafizə orqanları hadisəni araşdırırlar. Haitidə şəkər qamışından saxta likör hazırlanması geniş yayılıb.




**QOÇ** - İşgüzar sövdələşmələrdə iştirak üçün böyük şansınız var. Bu istiqamətdə qarşınıza qoyduğunuz məqsədlərin əksəriyyətini reallaşdıra biləcəksiniz. Həmkarlarınızla ehtiyatlı davranın.

**BUĞA** - Dekabrın üçüncü dekadasının ən uğurlu gününü yaşayacaqsınız. Yeni təkliflər alacağınız, təzə xəbər eşidəcəyiniz labüddür. Bu gün hətta bir həftənin işini də görə bilərsiniz.

**ƏKİZLƏR** - Sağlamlığınıza diqqət yetirsəniz, ixtiyarınızda olan bu təqvimdə bütün proseslər qənaətbəxş olacaq. Hətta nahardan sonra hansısa sevindirici hadisənin şahidi olacağınız da mümkündür.

**XƏRÇƏNG** - O qədər də səmərəli vaxt deyil. Ciddi iş görmək, uzaq səfərə çıxmaq, risk etmək sizə zərər yetirə bilər. Amma bu gün ürəyinizə yaxın adamlarla bir yerdə olmağınız vacibdir.

**ŞİR** - Pulla bağlı problemlərinizi bu gün yoluna qoya bilməsəniz, müəyyən çətinliklərlə baş-başa qala bilərsiniz. Bu istiqamətdə aktivliyinizi artırmağa səy göstərin. Saat 17-19 arası uğurludur.

**QIZ** - Mənfi enerjili Ayın bürcünüzdə olması gününüzü bir qədər passiv edə bilər. Həmkarlarınızla aranızda yaranmış soyuqluq böyüməsin deyə, maksimum təmkin nümayiş etdirin. Çox pul xərcləməyin.

**TƏRƏZİ** - Sürprizlərlə dolu bir vaxtdır. Hər dəqiqənin qədrini bilin. Mövcud situasiyaları dəyərləndirməyi bacarsanız, inanın ki, bütün proseslər səmərəli olacaq. Təzə xəbər də eşidəcəksiniz.

**ƏQRƏB** - İxtiyarınızda olan bu təqvimdə yeni işlərə başlamağa dəyər. Bu yönümdə ulduzlar da sizə təkan verəcək. Boş durmaq, ümidsizliyə qapılmaq olmaz. Ətrafınıza yaxşı adamlar toplaşmaqdadır.

**OXATAN** - Ailə-sevgi münasibətlərində azacıq gərginlik gözlənilir. Bunu aradan qaldırmaq üçün kənar müdaxilələrə baş qoşmamalı, dedi-qodudan uzaq olmalısınız. Daha səmimi görünün.

**OĞLAQ** - Buraxdığınız hansısa səhvə görə, daxili sıxıntılarınızın artdığı güman olunur. Bu səbəbdən də özünüzü ələ almaqda çətinlik çəkirsiniz. Axşama yaxın vəziyyətiniz tənzimlənəcək.

**SUTÖKƏN** - Planetiniz olan Saturnun aktivləşməsi fəaliyyət prinsipində, eləcə də qarşılıqlı münasibətlərdə proseslərin xeyrinizə dəyişməsinə səbəb olacaq. Qərar qəbul edərkən özünüzə güvənin.

**BALIQLAR** - Bir qədər əsəbi ərəfədir. Az qala ətrafınızda olan hər bir predmet və ya məxluq əsəbinizi tarıma çəkir. Özünüzə toxtaqlıq verin. Başınızı daha çox işlə qarışdırmağa çalışın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Sahibsiz heyvanlara Yeni il hədiyyəsi...



Amerikanın Ayova ştatında yerli heyvan sığınacağı olan Animal Rescue Leaguedə qalan heyvanlar Milad bayramı münasibətilə özlərinə hədiyyə "seçiblər". Bu barədə videoyazı 21 dekabrda internetdə yayılıb. 6 gün ərzində videonu 48 min nəfər izləyib. Heyvanlara alınan oyuncaqların pulu isə sığınacağa verilən ianələr hesabına əldə edilib. Məlum olub ki, sığınacaq rəhbərliyi hər bayramda heyvanları sevindirməyə çalışır. Onun fikrincə, heyvanların da insanlar kimi sevinməyə, bayramı hiss etməyə haqqı var.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100